RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 9 (9754) 16 yanvar 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Yüksək beynəlxalq nüfuzun və ehtiramın təcəssümü



Sözü imzası qədər kəsərli olan İlham Əliyevin siyasi nüfuzunun göstəricisidir ki, dövlətimizin başçısı bu gün qlobal əhəmiyyətli məsələlərin müzakirə edildiyi, problemlərin həll olunduğu böyükmiqyaslı tədbirlərə ali qonaq kimi dəvət olunur. Elə yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində dünyanın 200-dən çox ölkəsindən yalnız 13 dövlət və hökumət başçısının olduğu tədbirdə Prezident İlham Əliyevin iştirak etməsi bunun bariz göstəricisidir.

Qeyd edək ki, 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi ötən illər ərzində dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir.

Azərbaycanın yüzlərlə ölkənin yekdil dəstəyi ilə COP29-a sədr seçilməsi də respublikamızın beynəlxalq miqyaslı problemlərə dərhal reaksiya verməsi və bu istiqamətdə effektiv işlər həyata keçirməsi ilə bağlı idi. Bir nümunə çəkək ki, bəşəriyyət COVID pandemiyası ilə üz-üzə qalanda ölkəmizin peyvənd milliyyətçiliyini sərt şəkildə tənqid etməsi, bütün ölkələrin eyni bərabərdə peyvəndlərə əlçatanlığı ilə bağlı çağırışları böyük təqdir qazanmaqla yanaşı, Azərbaycanın qətiyyətli və ədalətli siyasətini də gözlər önünə sərdi.

BMT-nin nüfuzlu tədbiri COP29-u keçirmək üçün, demək olar ki, dünyanın hər yerindən iştirakçılar Bakıya gəldilər və gərgin müzakirələr aparıldı, həmçinin COP tarixində rast gəlinməmiş mühüm nəticələr əldə olundu. Azərbaycan bu mötəbər tədbirdə 14 təşəbbüs irəli sürdü.

"...Təşkilatçılıq baxımından bu, həqiqətən də, uğur hekayəsi oldu", - deyə bir neçə gün əvvəl yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev COP29-da qazanılan uğurlarla bağlı söylədi ki, nəticələrə gəldikdə, çoxları bunu Bakı Nailiyyəti adlandırır və mən bununla razıyam. Çünki təqribən 10 il ərzində tərəflər karbon bazarı ilə bağlı razılığa gələ bilmirdi və COP-un ilk günlərində artıq uğur əldə edildi - karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılıq əldə edildi.

Dövlət başçısı COP-un maliyyələşmə məsələsi ilə bağlı bildirdi ki, biz qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıra bildik: "Çünki COP29-dan əvvəl razılaşdırılmış rəqəm 100 milyard dollar idi. Burada - Bakıda biz onu 300 milyard dollara çatdırdıq. Yəni kimsə iddia edirsə ki, bu, uğursuzluq idi, bu, ədalətsizlikdir. Bu, nailiyyət idi və bu, gələcək üçün bir miras oldu".

→ 4

## Azərbaycanın çoxtərəfli diplomatiyada zəngin təcrübəsi var

### Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Kayrat Sarıbay ölkəmizə Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyi dövründə gəlməsindən məmnunluğunu bildirdi. Ölkəmizin sədrlik prosesinin uğurla davam etdirildiyini deyən qonaq bütövlükdə Azərbaycanın çoxtərəfli diplomatiyada zəngin təcrübəsinin olduğunu qeyd etdi. Kayrat Sarıbay bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və digər beynəlxalq təşkilatlarda uğurlu sədrliyini vurğuladı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin də bu müstəvidə aparıldığını dedi. O, Azərbaycan tərəfindən konseptual sənədin təqdim olunduğu və bu sənəddə təşkilatın gələcək inkişafı ilə bağlı, həmçinin ölkələr arasında əməkdaşlığın və etimadın gücləndirilməsi üçün geniş sahəni əhatə edən təkliflərin əksini tapdığını bildirdi.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin təşkilata sədrliyinin uğurla davam etdirildiyini deyərək, üzv dövlətlər arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, təşkilatın institusional inkişafı və təşkilat çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyini qeyd etdi. Bu xüsusda gənclər, media, nəqliyyat bağlantıları sahələrində və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın inkişafının önəmi vurğulandı. Dövlətimizin başçısı Azərbaycan tərəfinin bu təşkilata sədrliyə çox məsuliyyətlə yanaşdığını bildirərək, ölkəmizin öz növbəsində bu formatın daha da möhkəmlənməsi işinə töhfəsini verəcəyinə əmin olduğunu dedi. Prezident İlham Əliyev ölkəmizin sədrliyi dövründə nəzərdə tutulan işlərin həyata keçirilməsində Azərbaycanla təşkilat arasında fəal birgə əməkdaşlığın aparılmasının zəruriliyini bildirdi. Dövlətimizin başçısı bu təşkilatın Asiya regionunda etimadın gücləndirilməsi və ölkələrarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyətli təsisat olduğunu bir daha diqqətə çatdırdı.

Qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-un yüksək səviyyədə keçirildiyini, bu tədbirə hazırlıqla bağlı qısa müddət ərzində Azərbaycan tərəfindən böyük işlərin görüldüyünü və COP29 nəticəsində qlobal iqlim gündəliyi ilə əlaqədar çox vacib qərarların qəbul edildiyini vurğulayaraq bu münasibətlə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı da öz növbəsində COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, lazımi tədbirlərin görüldüyünü dedi, həmçinin tədbirdə qlobal iqlim gündəliyi ilə bağlı çox əhəmiyyətli qərarların qəbul edildiyini vurğuladı, bu xüsusda yeni maliyyə hədəfi, karbon bazarı və digər məsələlər üzrə önəmli qərarların qəbuluna toxundu.




## Qlobal siyasətdə qətiyyətli mövqe

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirləri ilə 30 il işğal altında qalmış torpaqlarını azad etməsi dünya tərəfindən maraqla izlənilmiş, hətta ciddi rəğbətə səbəb olmuşdur. Ordumuzun müasir, yeni nəsil hərbi əməliyyatları, xüsusilə Şuşa kimi çətin relyefli ərazidə mümkün olmayanı edib tarixi şəhərimizi azadlığa qovuşdurması dünyanın aparıcı hərbi institutları və ekspertləri tərəfindən ciddi şəkildə öyrənilir və lazımi nəticələr çıxarılır. Silahlı Qüvvələrimizin İkinci Qarabağ savaşı günlərində göstərdiyi hərbi məharət müasir ordu anlayışına yeni baxışın meydana gəlməsində başlıca rol oynayıb. Ancaq unutmamalıyıq ki, düşmənin döyüş meydanında məhv edilib torpaqlarımızdan çıxarılmasından öncə, yəni problemin çözümünə ordunun müdaxiləsindən əvvəl Prezident İlham Əliyevin fenomenal xarici siyasət kursu ərazi bütövlüyümüzün bərpası yolunda hüquqi zəminin formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bu çoxillik prosesdə xalqımızın nümayiş etdirdiyi mətanət, iradə və xarici təzyiqlərə qarşı əyilməzlik qazanılan qələbəmizin başlıca səbəbi rolunda öz əksini tapmışdır.

Onillər boyu beynəlxalq birlik bizim tarixi torpaqlarımızdan imtina etməyimizə çalışsa da, bunun üçün müxtəlif təzyiq üsullarını işə salsa da, dövlətimiz prinsipial mövqeyindən geri çəkilməmişdir.

→ 3

## ABŞ demokratik dəyərlərdən dərs keçmək niyyətini kənara qoymalıdır

Vaşinqton ənənəsinə uyğun olaraq "insan haqları" və "demokratiya" kimi amillərlə pərdələnərək Azərbaycan dövlətinin daxili işinə qarışmağa çalışır, o cümlədən tarixinin ən sabit və ən güclü dövrünə qədəm qoymuş Azərbaycanda daxili gərginlik mühiti formalaşdırmaqla "parçala və hökm sür" siyasəti həyata keçirməyi arzulayır. ABŞ-nin Azərbaycandakı səfirliyi ölkəmizi "haqsız yerə həbs edilmiş bütün şəxsləri azad etməyə" çağırmaqla 1961-ci il Vyana Konvensiyasının tələblərini kobud şəkildə pozmaqla bərabər, həm də Azərbaycanın ədalət mühakiməsini və digər cinayət təqibi orqanlarının fəaliyyətini şübhə altına almağa cəhd edib, dövlət hakimiyyəti orqanlarını etibarsızlaşdırmağa çalışıb. Əgər Amerika Birləşmiş Ştatlarını, həqiqətən də, insan haqları və demokratiya maraqlandırırsa, Vaşinqton ilk növbədə öz sərhədləri daxilində bu prinsiplərə, anlayışlara hörmətlə yanaşmalıdır. "Ölkədə ana müxalifətin prezidentliyə əsas namizədinin hər kəsin gözü qarşısında güllələnməyə cəhd edilməsi, habelə ona münasibətdə bütün məhkəmə və inzibati orqanların gücündən tam şəkildə istifadə olunması fonunda ABŞ demokratik dəyərlərdən dərs keçmək niyyətini bir kənara qoymalı, ilk növbədə öz daxilində müşahidə olunan yolverilməz nöqsanlara köklənməlidir.

→ 7





## Azərbaycan sülh istəyir

### Paşinyan isə sülh müqaviləsini siyasi alver predmetinə çevirmək niyyətindədir

Azərbaycan hərbi yolla öz torpaqlarını azad etdikdən sonra Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dən olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərək bu qurumun 30 ilə yaxın dövr ərzində fayda vermədiyini vurğuladı.

Dövlətimizin başçısı 2024-cü il fevralın 18-də ATƏT-in baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti Helqa-Mariya Şmidlə görüşündə də ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz strukturların artıq ləğv edilməsinin vaxtının çoxdan yetişdiyini bildirdi.

Ermənistanın baş naziri Nikol Paşinyan əgər sülh danışıqları prosesində səmimidirsə, Ermənistanın Azərbaycana ərazi iddiası yoxdursa, ATƏT-in Minsk qrupunun ləğvi məsələsi bu gün həll olunmamış məsələ kimi müzakirə mövzusu olmamalı idi. Bu qurum, əslində, çoxdan ləğv edilməliydi.

→ 8

## "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 690 (Cild I) 11-ci maddəsinə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Bələdiyyə büdcəsinin gəlirləri və xərcləri bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində əks olunur. Bələdiyyə büdcəsinin xərcləri həmin informasiya sistemi vasitəsilə həyata keçirilir və müvafiq ödənişlər ödəniş xidməti təchizatçıları vasitəsilə təmin edilir.".

**Maddə 2.** "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 584 (Cild I) aşağıdakı məzmunda 37.8-ci maddə əlavə edilsin:

"37.8. Bələdiyyə büdcəsinin gəlirləri və xərcləri bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində əks olunur. Bələdiyyə büdcəsinin xərcləri həmin informasiya sistemi vasitəsilə həyata keçirilir və müvafiq ödənişlər ödəniş xidməti təchizatçıları vasitəsilə təmin edilir.".

**Maddə 3.** "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053 (Cild I) 3.4.3-cü maddəsinə ikinci halda "şəxslərə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 dekabr 2024-cü il*

## "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 86-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 86-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin 4-cü hissəsinin birinci və ikinci cümlələrində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur;

1.2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 37.8-ci maddəsinin birinci və ikinci cümlələrində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 86-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 24 dekabr tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 713 (Cild I) 2-ci hissəsinin ikinci abzası 2.1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.2-ci bənd əlavə edilsin:

"2.2. həmin Qanunun 11-ci maddəsinin 4-cü hissəsinin birinci və ikinci cümlələrində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur.".

4. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 605 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 257 nömrəli Fərmanı) 2.19-cu bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.20-ci bənd əlavə edilsin:

"2.20. həmin Qanunun 37.8-ci maddəsinin birinci və ikinci cümlələrində "informasiya sistemi" dedikdə "Bələdiyyələrlə iş" informasiya sistemi nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2025-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Dost Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstan ərazisində qəzaya uğraması və nəticədə insanların həlak olmaları, yaralanmaları Küveyt Dövlətində dərin hüzn və kədərə səbəb olmuşdur.

Zati-aliləri, Sizə və dost Azərbaycan xalqına, həlak olanların ailələrinə başsağlığı verir, Uca Allahdan həyatını itirənlərə rəhmət diləyir, "məkanları cənnət olsun" deyir, yaralananlara tezliklə sağalmalarını arzulayıram.

*Dərin hörmətlə,*

***Şeyx Sabah Xalid əl-Hamad***
***əl-Mübarək əl-SABAH,***
***Küveyt Dövlətinin Vəliəhdi***

❖ ❖ ❖

Zati-aliləri!

Ötən il dekabrın 25-də Qazaxıstanın Aktau şəhəri yaxınlığında "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin qəzaya uğraması nəticəsində 38 nəfərin həlak olması və bir çox insanın yaralanması barədə xəbəri dərin kədər hissi ilə qarşıladım.

Bu ağır itki ilə əlaqədar Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan xalqına, xüsusilə də həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının Dövlət İdarə Şurasının Sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Keçən il dekabrın 25-də Bakı-Qroznı reysini həyata keçirən təyyarənin qəzaya uğraması nəticəsində insanların həlak olması barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, Azərbaycan xalqına və bu dəhşətli hadisə nəticəsində zərər görən ailələrə dərin hüznlə başsağlığı verirəm.

Biz Azərbaycanın qardaşları olaraq faciənin kədərinə şərikik və bu çətin zamanda düşüncələrimiz həlak olanların ailələri ilədir. Əminik ki, qəzada həyatını itirənlərin xatirəsi heç vaxt unudulmayacaq.

*Dərin hörmətlə,*

***Nəcməddin Bilal ƏRDOĞAN,***
***Dünya Etnoidman Konfederasiyasının sədri***

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətini dəstəkləmək, habelə dinlərarası həmrəyliyin daha da inkişaf etdirilməsi, dini maarifləndirmə işinin müasir tələblərə uyğun şəkildə qurulması və mütərəqqi mənəvi-əxlaqi dəyərlərin təbliği sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,0 (üç) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 350,0 (üç yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 350,0 (üç yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 350,0 (üç yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 350,0 (üç yüz əlli) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2025-ci il*

## "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Braziliya Federativ Respublikasının Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il sentyabrın 13-də Kuyaba şəhərində imzalanmış "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Braziliya Federativ Respublikasının Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Braziliya Federativ Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2025-ci il*

## "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsinin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı"nda nəzərdə tutulan dövlət müəssisələri Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) strukturuna daxil edilsin.

3. "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I) aşağıdakı məzmunda 8-2-ci hissə əlavə edilsin:

"8-2. Bu Fərmanın müddəaları Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON-un) öz əmlakına və onun idarəetməsinə verilmiş dövlət müəssisələrinə, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinə və publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a) tətbiq edilmir.".

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2025-ci il*

## "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 8-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının 2023-cü il 19 dekabr tarixli 1055-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 513 (Cild I); 2024, № 4, maddə 365) 2-3.6-cı maddəsindən "və dövlət ehtiyatlarının yaradılması, istifadə edilməsi və bərpası qaydası" sözləri çıxarılsın.

**Maddə 2.** "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 683 (Cild I); 2024, № 2, maddə 132, № 4, maddə 365) 4.3.14-cü maddəsi aşağıdakı redaksiyada verilsin:

"4.3.14. səfərbərlik ehtiyatlarının yaradılması, saxlanılması və yeniləşdirilməsi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2024-cü il*

## Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838 (Cild I); 2024, № 3, maddə 247) 79.1.10-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 79.1.11-ci maddə əlavə edilsin:

"79.1.11. mövcud tikinti obyektinin torpaq sahəsində (tikinti sahəsi istisna olmaqla), yaxud fərdi yaşayış evinin həyətyanı torpaq sahəsində elektrik mühərrikli nəqliyyat vasitələri üçün yerləşdirilən elektrik enerjisi doldurucularının.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2024-cü il*

## "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 92-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 92-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nın 2.2.12-ci yarımbəndinə "yerləşdirilməsini" sözündən sonra "və saxlanılmasını" sözləri əlavə edilsin və həmin yarımbənddən "və səfərbərlik ehtiyatlarını saxlayan" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 275 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 707 (Cild I) 2.2-ci bəndində "5.2.18-5.2.20-ci" sözləri "5.2.19-cu və 5.2.20-ci" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490 (Cild I); 2024, № 5 (I kitab), maddə 515) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 1.6-cı bəndi ləğv edilsin.

4. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 19 iyul tarixli 90 nömrəli, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 2005-ci il 19 yanvar tarixli 175 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 11 aprel tarixli 2096 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 4, maddə 481 (Cild I) 2.1.3-cü yarımbəndindən "və dövlət ehtiyatlarının yaradılması, istifadə edilməsi və bərpası qaydasını" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 92-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 yanvar 2025-ci il*




# Qlobal siyasətdə qətiyyətli mövqe

**Həyat sübut edir ki, bütün dövrlərdə sınaqlara tab gətirməyən ölkələr daim böyük çətinliklərlə üzləşir, bu çətinlikləri dəf edənlər isə inkişaf yoluna qədəm qoyur, tarixi nailiyyətlər əldə edir, xalqının sevgisini, rəğbətini qazanır. Bu gün Azərbaycan müstəqil siyasət kursu həyata keçirir, həm də beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və imicini getdikcə daha da möhkəmləndirir.**



Ölkəmiz reallaşdırılan siyasətin səmərəliliyi, sosial-iqtisadi uğurları, regional və qlobal proseslərə təsir imkanları, təşəbbüskarı və əsas icraçılarından olduğu layihələrlə hazırda böyük bir coğrafiyanın çox güclü və nüfuzlu tərəfdaşı kimi qəbul edilir. Bu baxımdan respublikamızın əksər dövlətlərlə rəsmi səviyyədə müttəfiqlik münasibətlərinə malik olması, müxtəlif sahələr üzrə mühüm sənədlərin imzalanması ölkəmizin siyasi nailiyyətidir.

Burada Azərbaycanın regionumuzda yaratdığı yeni tarixi reallıqların da mühüm təsiri var. Regionun lider dövləti kimi bu reallıqlarda Azərbaycanın üzərinə böyük missiya düşür. Dövlətimiz yaşadığımız coğrafiyada sülhün, təhlükəsizliyin, dayanıqlı inkişafın əsas təminatçılarından biri rolunda çıxış edir. Təşəbbüskarı olduğu və addım-addım gerçəkləşdirdiyi layihələrlə bölgəmizi qlobal dünya üçün mühüm enerji-kommunikasiya mərkəzinə çevirir. Bu imkanlardan faydalanmaq istəyən dövlətlər isə təbii ki, çoxdur.

## Reallıqlara prinsipial münasibət

Azərbaycanın 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ildə həyata keçirilmiş antiterror tədbirləri ilə 30 il işğal altında qalmış torpaqlarını azad etməsi dünya tərəfindən maraqla izlənilmiş, hətta ciddi rəğbətə səbəb olmuşdur. Ordumuzun müasir, yeni nəsil hərbi əməliyyatları, xüsusilə Şuşa kimi çətin relyefli ərazidə mümkün olmayanı edib tarixi şəhərimizi azadlığa qovuşdurması dünyanın aparıcı hərbi institutları və ekspertləri tərəfindən ciddi şəkildə öyrənilir və lazımi nəticələr çıxarılır. Silahlı Qüvvələrimizin İkinci Qarabağ savaşı günlərində göstərdiyi hərbi məharət müasir ordu anlayışına yeni baxışın meydana gəlməsində başlıca rol oynayıb. Ancaq unutmamalıyıq ki, düşmənin döyüş meydanında məhv edilib torpaqlarımızdan çıxarılmasından öncə, yəni problemin çözümünə ordunun müdaxiləsindən əvvəl Prezident İlham Əliyevin fenomenal xarici siyasət kursu ərazi bütövlüyümüzün bərpası yolunda hüquqi zəminin formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bu çoxillik prosesdə xalqımızın nümayiş etdirdiyi mətanət, iradə və xarici təzyiqlərə qarşı əyilməzlik qazanılan qələbəmizin başlıca səbəbi rolunda öz əksini tapmışdır.

On illər boyu beynəlxalq birlik bizim tarixi torpaqlarımızdan imtina etməyimizə çalışsa da, bunun üçün müxtəlif təzyiq üsullarını işə salsa da, dövlətimiz prinsipial mövqeyindən geri çəkilməmişdir.

Respublikamız uzun illər boyu bir dövlətin deyil, dünyanın birdən-birə üç aparıcı güc mərkəzinin təzyiqlərinə məruz qalıb. Onların hədəfləri bir olub - Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını leqallaşdırmaq və qanuniləşdirmək. Ancaq Azərbaycan nəinki bu təhdidlərə boyun əyməyib, hətta iqtisadiyyatını və ordusunu sıfırdan quraraq, möhkəm təməllər üzərində duran dövlətçilik ənənələrini yaradaraq öz ərazilərini işğaldan azad edib. Bu günlərdə yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı bu problemə bir daha toxunmuşdur: "Ermənistan Azərbaycan ərazilərinin bir santimetrini belə azad etmək istəmirdi. Onlar hesab edirdilər ki, bir müttəfiqdən milyardlarla dollarlıq pulsuz silah, digər ikisindən isə siyasi və mənəvi dəstək aldıqlarına görə özlərini rahat hiss edirlər. Beləliklə, ATƏT-in Minsk qrupunun üç həmsədrinin hamısı mənim cavab verdiyim həmin dövrdə birmənalı olaraq işğalçının tərəfində idi. Mən bunu 2004-cü ildən Minsk qrupu çərçivəsində danışıqlar aparan və bu "üçlüklə" çoxlu sayda görüşlər keçirən insan kimi deyirəm. Ona görə də biz, əlbəttə, bu ərazilərin dialoq yolu ilə qaytarılacağını güman etmirdik. Eləcə də ərazi bütövlüyünün təmin edilməsini".

## Xarici siyasətdə çoxvektorluq

Torpaqlarının işğaldan azad edilməsinə nail olan Azərbaycan təzyiq və məhdudiyyətlərə rəğmən, milli maraqlarının təminatı məsələsində yüksək prinsipiallıq nümayiş etdirmiş və dünyanın diqqətini özünə cəlb etməyə nail olmuşdur. Vətən müharibəsindəki hərbi qələbə dövlətimizin beynəlxalq nüfuzunu artırmış və xarici siyasət sahəsindəki addımlarında daha da müstəqil olmasını şərtləndirmişdir.

Azərbaycan kimi tam müstəqil dövlətlə digər ölkələrin siyasi və iqtisadi işbirliyi qurmağa can atmaları təbii haldır. Müstəqil xarici siyasət sabit münasibətlər deməkdir. Azərbaycan özünün çoxvektorlu xarici siyasət doktrinasına müvafiq olaraq bir sıra beynəlxalq siyasi platformalarda təmsil olunur. Rəsmi Bakının seçim edərkən əsas tutduğu başlıca prinsip ondan ibarətdir ki, bu təmsilçilik Azərbaycana real dividendlər gətirməli, üzvlük xatirinə olmamalı və ilk növbədə milli maraqlarımıza cavab verməlidir. Bu prosesdə dövlətimizin yanaşması ilk növbədə tarazlı olmalı, tələskənliyə yol verilməməli və uzun illər üçün hesablanmış analitik qənaətə əsaslanmalıdır. Məsələn, Azərbaycanın dünyanın tərkibinə görə ikinci böyük beynəlxalq təşkilatı - Qoşulmama Hərəkatına üzvlüyü, dördillik sədrliyi və burada fəal, uğurlu fəaliyyəti sözügedən yanaşmanın parlaq nümunəsidir.

Qoşulmama Hərəkatı hər hansı hərbi-siyasi bloka qatılmayan ölkələrin bir araya gəlməsi fəlsəfəsi üzərində bərqərar olan beynəlxalq təşkilatdır. Əgər bu dövlətlərin böyük bir qismi bu təmsilçiliklə özlərinin siyasi neytrallıqlarını nümayiş etdirirlərsə, Azərbaycanın təşkilata üzvlüyü heç bir beynəlxalq güclərin diktəsindən, xarici siyasət ruzigarlarından asılı olmadığının göstəricisidir. Dövlətimiz özünü iqtisadi cəhətdən tam təmin etməyə qadirdir. Ölkəmizin inkişaf etmiş milli hərbi-sənaye kompleksi var. Bütün bunlar Azərbaycanın beynəlxalq siyasi platformalara üzvlük məsələsində də mühüm rol oynayır.

Bu gün ölkəmiz Qlobal Cənubla Qlobal Şimal arasında körpülər qurur. Prezident İlham Əliyevin də xatırlatdığı kimi, regionumuzda və postsovet məkanında Azərbaycan yeganə ölkədir ki, Avropa İttifaqının 10 ölkəsi ilə strateji əməkdaşlıq edir. Respublikamız böyük qaz ehtiyatları, qurulan qlobal enerji infrastrukturu ilə Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır.

Bundan başqa, Azərbaycan Prezidentinin şəxsiyyətinə olan böyük güvən, onun verdiyi bütün vədləri tutması, əldə edilən anlaşmalara sadiqliyi, sözünə də imzası qədər dəyər verməsi ölkəmizlə sıx əməkdaşlıq etmək istəklərini şərtləndirən əsas amillərdəndir. Ona görə də Azərbaycanın lideri iştirak etdiyi beynəlxalq tədbirlərdə müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinin əhatəsində olur, hər kəs Prezident İlham Əliyevlə müzakirələrə, onunla ünsiyyətdən hansısa şəkildə faydalanmağa can atır.

## Müsəlman dünyasının elitar birliyi

Azərbaycanın iqtisadi tərəfdaş seçimi prosesində müstəqil qərar qəbul etməsi yenicə üzvü olduğu daha bir qurumla münasibətlər kontekstində xüsusi maraq kəsb edir. Söhbət islam dünyasının ən proqressiv iqtisadi platformalarından biri olan D-8-dən gedir. İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Qahirədə keçirilən XI Sammitində Azərbaycanın yekdilliklə quruma üzv seçilməsi müstəqillik tariximizdə beynəlxalq diplomatik uğurlarımızın sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yaddaşlarda qalacaq. Bu hadisə Prezident İlham Əliyevin qətiyyətli və effektiv xarici siyasətinin məntiqi nəticəsi olmaqla bərabər, həm də dövlətimizin çoxtərəfli diplomatiyasının daha bir uğurudur. Azərbaycan müsəlman dövlətlərini və islam aləmini təmsil edən beynəlxalq platformalarla sıx təmasdadır. İslam dünyasının nüfuzlu qurumu olan D-8-ə üzvlük həmrəylik, təəssübkeşlik və qarşılıqlı maraqların təmin olunması prinsiplərinə əsaslanan işgüzar əməkdaşlığın göstəricisidir.

D-8-in sıralarına inkişaf etməkdə olan səkkiz müsəlman dövləti daxildir. Bu, böyük coğrafiyanı əhatə edən müsəlman dünyasının səkkiz qabaqcıl dövlətinin elitar birliyidir. Təşkilatın yaradılması təşəbbüsü Türkiyəyə məxsusdur. 1996-cı ilin 22 oktyabrında İstanbulda keçirilən İqtisadi Əməkdaşlıq Konfransında Türkiyənin təklifinin müsbət nəticəsi olaraq İndoneziya, Malayziya, Pakistan, Misir, İran, Nigeriya və Banqladeş prioritet hədəf kimi birgə iqtisadi fəaliyyətin dərinləşdirilməsi ideyasını əsas tutaraq vahid platformada təmsilçiliyə razılıqlarını bildiriblər. Bir il sonra, 15 iyul 1997-ci ildə adıçəkilən dövlətlərin rəhbərləri və hökumət başçılarının iştirakı ilə keçirilən sammitdə D-8-in əsası qoyulub. Tədqirəlayiq haldır ki, təşkilatın uzun illərdən sonra genişlənmə üçün atdığı ilk addımı Azərbaycanı öz sıralarına qəbul etməsi olub. Halbuki dünyada onlarla müsəlman dövləti var. Prezident İlham Əliyev bunu ölkəmizin xarici siyasət imici, işgüzar reputasiyası baxımından ciddi hadisə hesab edir və yerli kanallara verdiyi müsahibədə məsələyə xüsusi münasibət bildirir: "Bu, bizim üçün növbəti uğurlu addım oldu. Çünki Azərbaycanın bu təşkilata qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir. ...Təşkilat 30 ilə yaxın bundan əvvəl yaranmışdı, Türkiyənin təşəbbüsü ilə və səkkiz ölkədən ibarət idi. Bu illər ərzində əlavə üzv qəbul edilməmişdi. Birinci genişlənmə qərarından sonra qəbul edilən üzv Azərbaycan oldu. Əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda beynəlxalq aləmdə rolumuzu göstərir. D-8 müsəlman ölkələrini birləşdirən ən böyük təşkilatdır. Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır. Əgər biz bu təşkilatın ümumi daxili məhsulunu götürsək, bu, 5 trilyon dollardan çoxdur. Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir. Artıq bütün göstərişlər verilib ki, Azərbaycan bu təşkilatda fəal olsun və öz töhfəsini verə bilsin".

Dövlət başçısı hesab edir ki, Azərbaycan həmişə müsəlman aləminin dəyərli üzvü olmuşdur. Əgər İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin açıqlamalarına diqqət yetirsək, görərik ki, bütün dövrlərdə bu təşkilat, - hansı ki bütün müsəlman ölkələrini birləşdirir, - Azərbaycanla bağlı müsbət fikirlər söyləmiş, ölkəmizə həmişə dəstək vermişlər: "Biz bütün beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də daim müsəlman ölkələrinin maraqlarını müdafiə edirik. Biz bütün təşkilatlarda, əgər hansısa təşkilatda rəhbər vəzifəyə seçim keçirilirsə və orada müsəlman ölkəsinin nümayəndəsi varsa, mütləq avtomatik olaraq, o nümayəndəyə səsimizi veririk. Yəni, bu, mənim göstərişimdir və bir dəfə verilmiş göstəriş, yenə də deyirəm, avtomatik həll olunur. Biz bir çox müsəlman ölkələrinə yardımlar etmişik. Düzdür, biz bununla öyünmürük və edəndə də bunu çox da işıqlandırmırıq. Amma hətta mətbuata gedən məlumat kifayətdir deməyə ki, bu sahədə də çox fəalıq, həm COVID dövründə, həm digər məsələlərdə, Fələstin xalqının üzləşdiyi bu fəlakətlə bağlı yenə də biz ön sıralarda olmuşuq". Dövlətimizin başçısı daha sonra bildirdi ki, Suriyada artıq Əsəd rejiminin çökməsindən, yeni hökumətin formalaşmasından sonra Türkiyənin, ardınca ikinci ölkə Azərbaycan oldu ki, oraya humanitar yardım göstərdi. "Yəni bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D-8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur. Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır. Bax dediyimi islam həmrəyliyi ilə bağlı siyasətimiz nəzərə alınıbdır və eyni zamanda bu təşkilat öz coğrafiyasını da genişləndirir. Artıq D-8 həm Qafqaz, həm də Xəzər regionuna genişlənib və coğrafiyamız nə qədər geniş olsa, imkanlarımız da o qədər geniş olacaq", - Azərbaycan Prezidenti müsahibəsində xüsusi vurğulamışdır.

D-8-in əsas hədəf və məramı iqtisadi müstəvidə daha sıx birgə əməkdaşlıqdan ibarətdir. Bu faktor Azərbaycan qarşısında yeni üfüqlər açır. Birincisi, dövlətimizin bu elitar ölkələr qrupuna qəbul edilməsi iqtisadi nüfuz və imkanlarımızın daha geniş miqyasda tanınması və qəbul edilməsi deməkdir. İkincisi isə D-8 Azərbaycanın malik olduğu iqtisadi resurslar, təcrübə və logistik imkanlar baxımından, islam aləmi ilə mövcud olan əməkdaşlıq göstəricilərini daha da yüksəltmək üçün əlverişli fürsətdir.

Azərbaycan tarix boyu Qərblə Şərqin kəsişdiyi bölgədə yerləşməklə bir növ körpü rolunu oynayıb. Ölkəmiz tarixi İpək yolunun üzərində yerləşib. Qərbin, Avropa ölkələrinin Şərq bazarına ənənəvi marağı xalqımızın və dövlətçilik tariximizin bu qlobal siyasi, iqtisadi-ticari prosesdən təcrübə toplamasına, zənginləşməsinə öz töhfəsini verib. Geniş siyasi və iqtisadi gücü Azərbaycanın malik olduğu bu tarixi fürsətdən maksimum şəkildə yararlanmasına təminat verir. Ölkəmiz özünün inkişaf etmiş və şaxələnmiş yol-nəqliyyat infrastrukturu ilə müasir dünyanın logistik problemlərinin həllində aparıcı rollardan birini oynayır.

Azərbaycanın ərazilərini geri qaytarması, suverenliyini və sərhədlərinin bütövlüyünü bərpa etməsi təkcə dövlətimiz və xalqımız deyil, daha qlobal coğrafiyada digər dövlətlər, hətta qitələr üçün əməkdaşlıq hüdudlarını genişləndirir. Məsələn, bu gün aktual olan Orta dəhliz layihəsinin əsas bəndlərindən biri kimi məhz Azərbaycan çıxış edir. Ölkəmizin qeyri-dayanıqlı dünyada sabitlik adası olması iri iqtisadi mərkəzlərin və bazarların mal mübadiləsi prosesində aparıcı və həlledici faktor qismində çıxış etməsinə şərait yaradır.

Azərbaycan D-8-ə məhz belə geniş imkanları və proseslərə təsir alətləri ilə üzv olub. Ölkəmizin malik olduğu iqtisadi resursları, logistik infrastrukturu, intellektual potensialı ilə "İslam səkkizliyi"nin aparıcı üzvlərindən biri olacağı şübhə doğurmur. Siyasi gündəmdə olan və mütləq gerçəkləşəcək Zəngəzur dəhlizi islam coğrafiyası ilə yalnız Azərbaycan və Cənubi Qafqazı deyil, həmçinin Orta Asiyanın türk dövlətlərini, uzaq Çini və Cənubi-Şərqi Asiyanın zəngin, qabaqcıl bazarlarını əlaqələndirə bilər. Təkcə bu fakt Zəngəzur dəhlizinin hansı qlobal əhəmiyyət daşıdığını sübut edir.

Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti dövlətimizin müstəqilliyinin göstəricisidir. Bu mühüm xüsusiyyət Azərbaycana dövlət mənafelərinin və təhlükəsizliyinin təmin edilməsində prinsipial mövqe sərgiləməyə imkan verir. Eyni zamanda güclü təməllər üzərində formalaşmış dövlət müstəqilliyimiz xarici siyasi əlaqələrimizin şaxələnməsinə də şərait yaradır.

Müasir dünyada müttəfiq çoxluğu amilinin çəkisi böyükdür. Biz buna Vətən müharibəsi günlərində Azərbaycana qarşı atılan qərəzli xarici siyasət addımlarının neytrallaşdırılması prosesində müttəfiqlərimizin nümayiş etdirdikləri həmrəylik zamanı əmin olduq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

ABU DHABI SUSTAINABILITY WEEK 2025

# Azərbaycan Əbu-Dabi Dayanıqlılıq Həftəsinin fəal üzvüdür

**Son illər Azərbaycanın beynəlxalq nüfuzu artır, ölkəmiz etibarlı tərəfdaş kimi qəbul olunur. Prezident İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində Azərbaycanın Avropa ölkələri, türk dünyası ilə olduğu kimi, ərəb dövlətləri ilə münasibətləri də müasir çağırışlar çərçivəsində inkişaf edir.**

Məhz bu münasibətin nəticəsidir ki, ərəb ölkələri həmişə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə öz dəstəklərini də ifadə ediblər. Onu da unutmayaq ki, Ərəb Dövlətləri Liqasının bütün üzv dövlətləri Qoşulmama Hərəkatının üzvləridir. Azərbaycan bu təşkilat çərçivəsində ərəb dövlətləri ilə geniş əməkdaşlıq imkanlarına malikdir.

Birləşmiş Ərəb Əmirliklərinin MASDAR şirkəti tərəfindən inşa edilən Qaradağ Günəş-Elektrik Stansiyası bu ölkə ilə Azərbaycanın əməkdaşlıq səviyyəsini göstərir. Prezident İlham Əliyevin təməlqoyma mərasimində iştirak etdiyi stansiyada tikinti işləri rekord müddətdə - 19 aya yekunlaşdı. Stansiya bu gün BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əsas hədəflərindən birinin - Paris İqlim Sazişi çərçivəsində iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Yeri gəlmişkən, qeyd edək ki, zaman-zaman həmin istiqamətdə keçirilən bir çox qlobal tədbir iqlim dəyişmələrinə həsr olunur ki, bu da planeti qarşılaşa biləcək təhlükələrdən qorumaq məqsədi daşıyır. Onlardan biri də yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsidir.

Prezident İlham Əliyevin də iştirak etdiyi Əbu-Dabi Dayanıqlılıq Həftəsi dayanıqlı inkişafı sürətləndirmək və iqtisadi, sosial və ekoloji tərəqqiyə nail olmaq üçün BƏƏ və onun təmiz enerji şirkəti MASDAR tərəfindən dəstəklənən qlobal təşəbbüsdür. Dövlətimizin başçısının Əbu-Dabi Dayanıqlılıq Həftəsinə dəvət olunması xüsusi əhəmiyyət kəsb edir. Çünki Azərbaycan 2015-ci ildə BMT-nin Dayanıqlı İnkişaf Sammitində təşkilatın "Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi"ni təsdiqləyib və bununla Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üzrə qlobal səylərə qoşulub. İlham Əliyevin fərmanı ilə 2016-cı ildə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Xatırladaq ki, 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi 3 prinsip əsasında yaradılıb. Bu, qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, üçüncüsü isə innovasiyadır. Ənənəvi tədbir ötən illər ərzində dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir. Budəfəki tədbirdə 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxs iştirak edir. Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd əl-Cabir ölkəsinin dayanıqlılıq sahəsində həyata keçirdiyi siyasət və layihələr barədə məlumat verib, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin mühüm beynəlxalq platforma kimi rolunun artdığını qeyd edib.

Sayca 17-ci olan builki sammit "Davamlı gələcək üçün sektoral inteqrasiya" mövzusuna həsr olunub. Yanvarın 18-dək davam edəcək Əbu-Dabi Dayanıqlılıq Həftəsinin yüksəksəviyyəli təmsilçiləri fiziki və virtual formatda toplanaraq insan inkişafının təmini və dayanıqlı həllər istiqamətində biliklərini bölüşür, strategiyaları müəyyənləşdirir və beynəlxalq şirkətlərin pavilyonlarında ən qabaqcıl texnologiyaları nümayiş etdirirlər. Onu da qeyd edək ki, bu sammitdə hər il 50 mindən çox şəxs, 175-dən artıq ölkə, bir çox dövlət başçısı, 1000-dən yuxarı biznes dairəsinin nümayəndələri iştirak edir.

Əbu-Dabi Dayanıqlılıq Həftəsi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə, davamlı iqtisadi inkişafın və "yaşıl bərpa" prosesinin təmini məqsədilə səylərin birləşdirilməsi istiqamətində mühüm strateji platforma hesab olunur. Təsadüfi deyil ki, ötənilki Dayanıqlılıq Həftəsində BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP28) ərəfəsində keçirildiyi üçün qida və su təhlükəsizliyi, enerjiyə çıxış, sənayenin dekarbonizasiyası, səhiyyə və iqlimə uyğunlaşma da daxil olmaqla müxtəlif vacib mövzular müzakirə olunmuşdu. İlk dəfə keçirilən "Yaşıl hidrogen"sammiti də 2023-cü ilin Dayanıqlılıq Həftəsinin "taleyinə yazılmışdı".

Ötənilki tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın bərpaolunan enerji sektorunda görülən işlərə toxunaraq demişdi: "Biz Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***




# Yüksək beynəlxalq nüfuzun və ehtiramın təcəssümü

**Regionda, eyni zamanda dünyada baş verən geosiyasi prosesləri dərindən təhlil edərək praqmatik addımlar atan Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycan beynəlxalq gücə çevrilib.**

Sözü imzası qədər kəsərli olan İlham Əliyevin siyasi nüfuzunun göstəricisidir ki, dövlətimizin başçısı bu gün qlobal əhəmiyyətli məsələlərin müzakirə edildiyi, problemlərin həll olunduğu böyükmiqyaslı tədbirlərə ali qonaq kimi dəvət olunur. Elə yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində dünyanın 200-dən çox ölkəsindən yalnız 13 dövlət və hökumət başçısının olduğu tədbirdə Prezident İlham Əliyevin iştirak etməsi bunun bariz göstəricisidir.

Qeyd edək ki, 2008-ci ildə təsis olunan Əbu-Dabi Dayanıqlılıq Həftəsi ötən illər ərzində dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir.

## Azərbaycan töhfəsi

Multikultural, tolerant ölkə kimi dünyada unikal ünvana sahib olan Azərbaycan istər hər gün dünyada daha da gərginləşən beynəlxalq siyasi əlaqələrin normallaşdırılması, istər iqtisadi sahədə rastlaşılan çətinliklərin həllinə birbaşa töhfə verməsi, istərsə də kataklizmlər, iqlim fəsadlarından çıxış yollarının aranması kimi qlobal məsələlərdə aktiv rol oynayan ölkədir.

Azərbaycanın yüzlərlə ölkənin yekdil dəstəyi ilə COP29-a sədr seçilməsi də respublikamızın beynəlxalq miqyaslı problemlərə dərhal reaksiya verməsi və bu istiqamətdə effektiv işlər həyata keçirməsi ilə bağlı idi. Bir nümunə çəkək ki, bəşəriyyət COVID pandemiyası ilə üz-üzə qalanda ölkəmizin peyvənd milliyyətçiliyini sərt şəkildə tənqid etməsi, bütün ölkələrin eyni bərabərdə peyvəndlərə əlçatanlığı ilə bağlı çağırışları böyük təqdir qazanmaqla yanaşı, Azərbaycanın qətiyyətli və ədalətli siyasətini də gözlər önünə sərdi.

BMT-nin nüfuzlu tədbiri COP29-u keçirmək üçün, demək olar ki, dünyanın hər yerindən iştirakçılar Bakıya gəldilər və gərgin müzakirələr aparıldı, həmçinin COP tarixində rast gəlinməmiş mühüm nəticələr əldə olundu. Azərbaycan bu mötəbər tədbirdə 14 təşəbbüs irəli sürdü.

"...Təşkilatçılıq baxımından bu, həqiqətən də, uğur hekayəsi oldu", - deyə bir neçə gün əvvəl yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev COP29-da qazanılan uğurlarla bağlı söylədi ki, nəticələrə gəldikdə, çoxları bunu Bakı Nailiyyəti adlandırır və mən bununla razıyam. Çünki təqribən 10 il ərzində tərəflər karbon bazarı ilə bağlı razılığa gələ bilmirdi və COP-un ilk günlərində artıq uğur əldə edildi - karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılıq əldə edildi.

Dövlət başçısı COP-un maliyyələşmə məsələsi ilə bağlı bildirdi ki, biz qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıra bildik: "Çünki COP29-dan əvvəl razılaşdırılmış rəqəm 100 milyard dollar idi. Burada - Bakıda biz onu 300 milyard dollara çatdırdıq. Yəni kimsə iddia edirsə ki, bu, uğursuzluq idi, bu, ədalətsizlikdir. Bu, nailiyyət idi və bu, gələcək üçün bir miras oldu".

## "Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm"

Ötən il Azərbaycanın Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı yekdilliklə D-8 təşkilatının üzvü seçilməsi də ölkəmizin növbəti diplomatik uğuru idi. Onilliklər əvvəl yaranmış bu təşkilata ötən illər ərzində əlavə üzv qəbul edilməmişdi və birinci genişlənmə qərarından sonra qəbul edilən üzv məhz Azərbaycan oldu. Respublikamızın sözügedən təşkilata üzv qəbul edilməsi Azərbaycanın nüfuzunu və beynəlxalq aləmdə rolunu bir daha göstərdi. Ölkəmizin bu təşkilatda da fəal olacağı və onun inkişafına öz töhfəsini verəcəyi də şübhəsizdir.

2022-ci ildə başlamış Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropaya Rusiyanın qaz təchizatının pozulması zamanı, Avropa Komissiyası yardım üçün Azərbaycana müraciət edib və bununla bağlı bəyannamə imzalanıb. O zamandan etibarən Azərbaycan qazı alan Avropa ölkələrinin sayı artıb və hazırda onların sayı 10-a çatıb: İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Slovakiya və Şimali Makedoniya. Həmin Avropa ölkələrindən səkkizi Avropa İttifaqının üzvüdür. Bu statistikanın özü də göstərir ki, Azərbaycan Avropada da tərəfdaşlarına ciddi dəstək verir.

Xatırladaq ki, bir neçə gün əvvəl Serbiya Prezidenti Aleksandar Vuçiç yerli televiziya kanalındakı çıxışı zamanı vurğulayıb ki, bəzi ölkələr bir müddət qaz almayacaq, lakin Azərbaycan Prezidenti, böyük dostumuz İlham Əliyev qərar verdi, Serbiyaya hər zaman qaz nəql olunacaq: "Bu, ölkəmiz və xalqımız üçün böyük və mühüm qərardır. Azərbaycanla və Prezident İlham Əliyevlə dostluğumuzla fəxr edirəm. Mən onu nə vaxt desə Belqradda gözləyirəm. Çünki biz qarışıq komitələrə malik olmalıyıq və əməkdaşlığımızı daha çox müzakirə etməliyik. Bizim sosial həyatın bütün sahələrində strateji əlaqələrimiz var və bu münasibətlər getdikcə daha da inkişaf edir. Bu, hər zaman belə dostlara arxalana biləcəyimizin yalnız bir göstəricisidir. Belə dostluqlar qurmalısınız".

## Xalqa arxalanan uğurlu siyasət

Gətirdiyimiz misallardan da aydın görünür ki, Prezident İlham Əliyevin şəxsi əzmi, qlobal liderlik qabiliyyəti, həyata keçirdiyi müstəqil siyasət sayəsində Azərbaycan tarixindəki ən qüdrətli çağlarını yaşayır. Atdığı düşünülmüş addımlarla ölkəmizi yüksək inkişaf mərhələsinə yüksəldən, ona hərbi zəfərlər qazandıran Qalib Lider İlham Əliyev bölgədə normallaşmaya, ümumi inkişafa tərəqqiyə hesablanan siyasət yürüdür. Eyni zamanda dünyada davamlı sülhün və sabitliyin bərqərar olunması üçün təsirli fəaliyyət göstərir. Azərbaycanın bu gün təkcə regional deyil, qlobalmiqyaslı məsələlərdə də həlledici rol oynaması, söz sahibinə çevrilməsi beynəlxalq səviyyədə də etiraf olunan həqiqətdir. İlham Əliyev şəxsiyyətinin bütöv, dönməz, etibarlı, güvənli xarakterinin göstəricisidir ki, əksər dövlət başçıları İlham Əliyevin timsalında əziz qardaşa, böyük dosta malik olduğunu söyləyir, Azərbaycan Prezidenti ilə dostluqlarından fəxr duyduqlarını ifadə edirlər.

Nüfuzu regionun sərhədlərini çoxdan aşaraq dünyaya yayılan Prezident İlham Əliyevin özü isə uğur formulunu yuxarıda sözügedən müsahibəsində belə açıqlayıb: "Bu gün hər yerdə və hər sahədə gedən inkişafın təməlində məhz xoş əhvali-ruhiyyə, xoş ovqat, cəmiyyətimizin rahat yaşaması, özünə əminlik hissləri dayanır. Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Azərbaycan hökumətinin missiyası Maldivdə səfərdə olub

**Yanvarın 13-15-də xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə Azərbaycan Respublikasının hökumət missiyası Maldiv Respublikasında səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, səfər zamanı Elnur Məmmədov Maldivin vitse-prezidenti Uz Hussain Mohamed Latheef tərəfindən qəbul edilib. Həmçinin E.Məmmədovun iqtisadi inkişaf və ticarət naziri Mohamed Saeed ilə ikitərəfli görüşü keçirilib. Görüşlərdə Maldiv tərəfi Azərbaycan hökumət missiyasını yüksək qiymətləndirib və hər iki tərəf üçün maraq doğuran məsələlər müzakirə edilib.

Səfər çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Maldiv Xarici İşlər Nazirliyi arasında ilk siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfdən isə Maldiv xarici işlər katibi Fathimath İnaya rəhbərlik ediblər. Siyasi məsləhətləşmələr zamanı ikitərəfli və çoxtərəfli siyasi əlaqələrin genişləndirilməsi, iqtisadi-ticarət, energetika, logistika və nəqliyyat, turizm, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

İki ölkə arasında beynəlxalq təşkilatlarda əməkdaşlıq müsbət dəyərləndirilib, çoxtərəfli formatlarda qarşılıqlı dəstək fəaliyyətinin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Hökumət missiyasının üzvləri olan Azərbaycanın İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Turizm Agentliyi və Azərbaycanda fəaliyyət göstərən şirkət nümayəndələri üçün Maldivin müvafiq dövlət qurumları və çoxsaylı yerli şirkətləri tərəfindən məlumat forumu təşkil edilib. Forum zamanı Azərbaycan nümayəndələri üçün Maldivdə turizm, hotelçilik, nəqliyyat və digər sahələrdə investisiya imkanları barədə ətraflı təqdimatlar edilib, məzmunlu müzakirələr aparılıb.

Səfər zamanı missiya üzvləri üçün Maldivin bir sıra sənaye zonalarına turlar təşkil edilib.

# Fransanın üzərində "Damokl qılıncı"

**Ötən ilin dekabr ayında Fransua Bayru cəmi bir il ərzində Fransanın dördüncü baş naziri təyin olunub. İndi o, böyük bir problemlə üzləşib və qarşısında 2025-ci il büdcə planını qəbul etmək kimi ciddi bir vəzifə dayanıb.**



Yanvarın 14-də Bayru hökumətin "yol xəritəsi"ni müəyyənləşdirən və çoxdan gözlənilən proqram nitqi ilə çıxış edib.

Müxtəlif siyasi qüvvələrlə bir neçə gün davam edən danışıqlardan sonra baş nazir sol tərəfi razı salmaqla sağdakı müttəfiqləri ilə ümumi dil tapmağa ümid edir. Bəzi solçu deputatları özünə cəlb etmək məqsədilə Bayru Fransa prezidenti Emmanuel Makronun 2023-cü ildə qəbul edilmiş qeyri-populyar pensiya islahatının bəzi aspektlərini yenidən nəzərdən keçirməyə hazır olduğunu açıqlayıb. Bunun müqabilində Bayru ümid edir ki, Fransanın 2025-ci il üçün büdcə planını qəbul etmək mümkün olacaq.

Yeni təyin olunmuş baş nazir həmkarlar ittifaqlarına və işəgötürən qurumlara pensiya islahatı ilə bağlı yeni saziş imzalamağa icazə verməyi təklif edib. Ancaq üç ay ərzində razılaşma əldə olunmasa, hazırkı islahat qüvvəyə minəcək.

Xatırladaq ki, digər solçu qüvvələrlə birgə Yeni Xalq Cəbhəsi (NFP) koalisiyasına daxil olan Sosialist Partiyası (PS) ötən ay ifrat sağçı deputatlarla birlikdə büdcə planının əleyhinə səs vermişdi və bu, keçmiş baş nazir Mişel Barnye hökumətinin devrilməsinə səbəb olmuşdu.

Hazırda sosialistlərin, eləcə də ifrat sağçıların dəstəyi kövrək Bayru hökumətinin sağ qalması üçün həlledici əhəmiyyətə malikdir.

Bu arada solçu France Unbowed (LFI) partiyası artıq Bayru hökumətinə etimadsızlıq səsverməsi təqdim edəcəyini açıqlayıb. "Yaşıllar" partiyası da Bayrunun istefasına səs verəcəyini bəyan edib.

Milli Assambleya yaxın müddətdə etimadsızlıq səsverməsinə baxacaq. Hökumətə etimadsızlıq səsverməsi üçün 289 səs lazımdır.

Avropa Parlamentinin deputatı və ifrat sağçı "Milli Birlik" partiyasının lideri Jordan Bardella X saytında yazıb: "Fransua Bayru yuxu gətirən nitqinin sonunda göstərdi ki, o, keçmişindən qopmuş bir insan deyil, əksinə, ləng davamlılığın, boş-boş söhbətlərin və sonsuz müzakirələrin adamıdır".

İfrat sağçı deputat Jan-Filipp Tangi bildirib ki, partiyası hələlik Bayrunun devrilməsi üçün səs verməyəcək. O, bir qrup jurnalistə deyib: "Biz büdcə aktlarına səs vermək hüququnu özümüzdə saxlayırıq... Biz əməli hərəkət gözləyirik".

Bayru çıxışında ölkənin borc problemini həll edəcəyinə söz verib və onu Fransanın üstündən asılmış "Damokl qılıncı" ilə müqayisə edib.

Hökumət başçısı bildirib ki, 2025-ci il üçün dövlət büdcəsinin kəsirini ÜDM-in 5,4 faizi səviyyəsində müəyyən etmək niyyətindədir.

Keçən il kəsir Avropa Komissiyasının icazə verdiyi səviyyədən iki dəfə çox olmaqla 6 faizi ötüb.

Makronun çıxışı Fransa siyasəti üçün təlatümlü bir ildən sonra gəldi. "Etiraf etməliyəm ki, parlamentin buraxılması indiyədək problemlərin həllinə deyil, Milli Assambleyanın yeni tərkibində parçalanmanın dərinləşməsinə gətirib çıxarıb. Mən sizə söz vermək, aydınlıq gətirmək və bizi təhdid edən durğunluğun qarşısını almaq üçün parlamenti buraxmaq qərarına gəldim. Ancaq ayıqlıq və təvazökarlıqla etiraf etməliyəm ki, bu qərar daha böyük qeyri-sabitliyə səbəb oldu. Mən də bu işdə öz payımı daşıyıram". Xatırladaq ki, keçən ilin iyun ayında partiyasının Avropa seçkilərində ifrat sağçılara uduzmasından sonra prezident növbədənkənar seçkilər elan etməklə ölkəni şoka salmışdı.

Qanunvericilik orqanına keçirilən tələsik seçkilər isə parlamentin aşağı palatasının parçalanması ilə başa çatıb, üç blokdan heç biri aşkar səs çoxluğu qazana bilməyib. Eyni zamanda iki aparıcı qüvvə öz baş nazirini təklif etmək hüququndan məhrum olub.

Fransa konstitusiyasına görə, Makron 2025-ci ilin iyuluna qədər erkən seçkilər təyin edə bilməz.

Fransız jurnalist Elen de Lozen "The European Conservative" jurnalında yazıb ki, prezidentin müraciəti ictimaiyyətdə növbəti narazılıq dalğasına səbəb olub.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Fransanın müstəmləkə siyasətinin sonu yaxınlaşır

**Beynəlxalq hüququn tələblərini yerinə yetirərək yüz illərdir yürütdüyü müstəmləkə siyasətinə son qoyaraq, zülüm, əzab-əziyyət verdiyi xalqlarının haqlarını özlərinə qaytarmaqla Fransa dövləti tarixinin qaranlıq səhifələrini birdəfəlik bağlamalıdır.**

Doğrudur, yaşananlar heç zaman unudulmur. Rəsmi Parisin ölkəsinin sərhədlərindən min kilometrlərlə uzaqlarda əsrlərdən bəridir ki, həyata keçirdiyi işğalçılıq siyasətinin qurbanları da heç zaman yaddan çıxarmayacaqlar. Çünki heç bir qüvvə Əlcəzair, Benin, Burkina Faso, Qvineya, Fil Dişi Sahili, Mali, Niger, Seneqal, Toqo, Kamerun, Mərkəzi Afrika Respublikası, Çad, Konqo, Ekvatorial Qvineya, Qabon və başqa ölkələrin tarixindən, xalqlarının yaddaşından müstəmləkəçi Fransanın zülmkarlığını, qəddarlığını silə bilməyəcək.

Fransa əsrlərlə Şimali Afrikanı işğal altında saxlayıb. Yerli xalqlara zülmlər edib. Zaman-zaman onlara ən ağır işgəncələr verib, soyqırımlara məruz qoyub. Şimali Afrikada Fransa imperialist maraqlarını XVII əsrdən həyata keçirməyə başlayıb. Minlərlə yaşayış məntəqəsini xarabalığa çevirib, milyonlarla insanı qətlə yetirib.

Bu ölkənin işğalçılıq siyasəti səbəbindən Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Əlcəzair azadlıq uğrunda ən çox şəhid verən ölkə hesab olunur. Fransa XVII əsrdən XIX əsrin 30-cu illərinədək 4 milyon nəfərdən çox, 1890-cı ildə isə 2 milyon 500 min əlcəzairlini qətlə yetirib.

Fransa müstəmləkəçilik siyasəti apardığı bütün ölkələrdə olduğu kimi, Əlcəzairdə də yerli sakinləri təbii sərvətlərlə zəngin ölkələrində məhrumiyyətlər içərisində, ac-yalavac yaşamağa məhkum edib. Fransa əlcəzairliləri də milli kimliklərindən, adət-ənənələrindən, dinindən uzaqlaşdırmaq, təbəəliyini qəbul etmək siyasəti yürüdüb. Xalqa ana dilində danışmaq, yazmaq qadağan olunub. Bu zorakılıqlara etiraz edənlər, işğalçı Fransanın şərtlərini qəbul etməyənlər işgəncələrə məruz qalıb, öldürülüb.

Emmanuel Makronın rəhbərlik etdiyi Fransa hökuməti bu gün də müstəmləkəçilik siyasətini cidd-cəhdlə davam etdirməyə çalışır. Lakin dövr dəyişib. Heç bir xalq Fransanın hökmünə baş əymək istəmir və müstəmləkə buxovlarını birdəfəlik qırmaq, azadlığa çıxmaq üçün mübarizə aparırlar.

İllərdir demokratiya və insan hüquqlarının müdafiəçisi kimi özünü göstərməyə çalışan Fransa hökumətinin artıq özü də başa düşür ki, yalanlarına inanan qalmayıb. Bütün dünya rəsmi Parisin əsl simasını yaxşı görür. Bir tərəfdən də Emmanuel Makronın yarıtmaz daxili və xarici siyasəti nəticəsində Fransanın nüfuzu gündəngünə zəifləyir.

Ölkəsində problemlərlə üzləşmiş, öz vətəndaşlarında belə narazılıqlar yaratmış rəsmi Paris bir tərəfdən də kolonializm mirasına sahib çıxmaqda çətinlik çəkir. Emmanuel Makron hökuməti müstəmləkə siyasətinə son qoymamaqda israrlı olsa da, bir sıra xalqları əsarət altında saxlamaq üçün ən sərt tədbirlərə əl atsa da, istəyinə nail ola bilmir.

Bu gün Əlcəzair xalqı da Fransadan ədalət tələb edir. Əsas tələblər sırasında soyqırımların tanınması, kompensasiya ödənilməsi, minalarla çirkləndirilmiş ərazilərin təmizlənməsi var.

Cinayətkar əməllərini nə boynuna alan, nə də son qoyan Fransa ilə Əlcəzair arasındakı münasibətlər son illər daha da tarıma çəkilib. Onsuz da mürəkkəb olan vəziyyəti Emmanuel Makronun "Dualemn" ləqəbli məşhur bloqçu Buəlam Sansalın həbs edilməsinə dair bəyanatı bir qədər də gərginləşdirib.

Fransa hüquq-mühafizə orqanları tərəfindən yetmiş beş yaşlı yazıçı "Fransa ərazisində zorakı hərəkətlərə çağırış" ittihamı ilə tutulub. Artıq uzun müddətdir ki, onun fəaliyyəti, sosial mediada çağırışları mübahisə mövzusu idi. Fransanın cənubunda Monpelyedə yaşayan bloqçu Bumidin Hava Limanından Əlcəzairə daxil olarkən həbs olunub. Əlcəzair on beş ildir ki, Fransada yaşamaq icazəsi olan və bu ölkədə dünyaya gəlmiş iki uşaq atası Buəlam Sansal barəsində Fransanın deportasiya qərarına qarşı çıxıb və onu qəbul etməyib. Fransa tərəfindən günortadan sonra təyyarə ilə Əlcəzairə göndərilən bloqçu həmin axşam bu ölkəyə geri qaytarılıb. Buəlam Sansala Əlcəzair ərazisinə daxil olmaq qadağan edilib.

Fransanın xarici işlər naziri Jean-Noel Barrot xəbərdarlıq edib: "Əlcəzair eskalasiyanı davam edərsə, Fransa ona cavab verməli olacaq". Fransanın daxili işlər naziri Bruno Rötayo Əlcəzairin bu reaksiyası ilə Fransanı alçaltmağa çalışdığını iddia edib: "Biz Əlcəzair məsələsində son dərəcə narahatedici həddə çatmışıq. Əlcəzairlə bağlı əlimizdə olan bütün vasitələri araşdırmalıyıq". Onun Fransanın bütün vasitələrdən istifadə edərək bu reaksiyaya cavab verməsini istəməsi vəziyyəti daha da gərginləşdirib. B.Rötayonun səriştəsizliyi, öz məsuliyyətini dərk etməməsi Əlcəzairin yerli KİV-də müzakirə mövzusuna çevrilib.

Əlcəzairdən qaytarılan Buəlam Sansal Fransada dövlət təhlükəsizliyini təhdid etməkdə ittiham olunur. Hazırda onun Paris yaxınlığındakı inzibati həbsxanada olduğu bildirilir. Məlumata görə, Fransanın "qəzəbinə" tuş gələn yalnız Sansal deyil. Son günlər Fransada bir neçə əlcəzairli bloqçu saxlanılıb.

Məqsəd aydındır. Emmanuel Makron hökuməti müstəmləkə siyasətinin tamamilə iflasa uğrayacağında narahatdır. Öz xalqının haqqını tələb edən, hüquqlarını müdafiə etməyə çalışan və ədalət tələb edənləri rəsmi Paris özünə düşmən hesab edir. Həbs etməklə, cəzalandırmaqla hökmranlığını qorumağa cəhd göstərir. Ancaq hər addımda etirazlarla qarşılaşır. Görünən odur ki, Fransa dövlətinin müstəmləkə siyasətinin sonu yaxınlaşır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Əməliyyat müşavirəsi



**Yanvar ayının 15-də Azərbaycan Respublikasının baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2024-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş nitqi ilə açan baş prokuror Kamran Əliyev bildirib ki, 2024-cü il dövlətimiz, eləcə də xalqımız üçün bir sıra əlamətdar və tarixi hadisələrlə yadda qalmışdır. İlk dəfə ərazilərimizin suverenliyinin tam təmin olunduğu şəraitdə 7 fevral 2024-cü il tarixdə keçirilmiş növbədənkənar seçkilərdə möhtərəm Prezident cənab İlham Əliyev seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilib.

Bundan əlavə yola salınan ildə paytaxtımız bir sıra dünya miqyaslı tədbirlərin keçirilməsinə evsahibliyi edib. Belə ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29), həmçinin 27 sentyabr - 2 oktyabr tarixlərdə Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclası, 29-cu illik konfransı və ümumi yığıncağının Bakı şəhərində yüksək təşkilatçılıqla keçirilməsi təmin olunub.

Baş prokuror bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində paytaxtımızın inkişafı, abadlaşdırılması, vətəndaşlarımızın rahat həyat şəraitinin və istirahətlərinin təmininə istiqamətlənmiş kompleks tədbirlərin icrası 2024-cü ildə də davam etdirilmişdir. O, Bakıda "Xaqani" bağının, Mərkəzi Parkın üçüncü hissəsinin və Mərkəzi Nəbatat Bağının və vətəndaşlarımızın istifadəsinə verilmiş bir sıra digər park, müəssisə, tarixi və mədəni abidələrin açılışını misal göstərmişdir.

Çıxışı zamanı baş prokuror eyni zamanda Azərbaycan Respublikası Prokurorluğuna göstərilən dövlət qayğısından bəhs edərək məhz bu sayədə hesabat dövründə əməkdaşların xidməti iş şəraitinin yaxşılaşdırılması məqsədilə bir sıra prokurorluqların, o cümlədən Bakı şəhəri Nərimanov Rayon Prokurorluğunun ən müasir standartlara cavab verən yeni inzibati bina ilə təchiz edildiyini bildirmişdir.

Kamran Əliyev qeyd edib ki, əvvəlki ildə olduğu kimi, 2024-cü ildə də vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə Bakı şəhərinin rayon prokurorluqları tərəfindən vətəndaşların qəbulu həyata keçirilməklə qəbulda olmuş ümumilikdə 587 vətəndaşın müraciətləri üzrə müvafiq tədbirlər görülmüşdür.

Hesabat dövründə görülmüş işlərə münasibətdə isə diqqətə çatdırıldı ki, Bakı şəhər prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, istintaq işi, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində zəruri addımlar atılmışdır.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Bakı şəhər prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Elşən Abbasov paytaxtın prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birlikdə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, 2024-cü il ərzində Bakı şəhər prokurorluq orqanlarında 649 cinayət işinin ibtidai istintaqı aparılmış və həmin cinayət işlərindən 194-nün istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, habelə hesabat dövründə prokurorluq orqanları tərəfindən istintaq edilmiş cinayət işləri üzrə müəyyən edilmiş 16 milyon 979 min 167 manat maddi ziyandan 12 milyon 425 min 084 manatının (73,2%) ödənilməsi təmin olunmuşdur. Bundan əlavə, 2024-cü ildə Bakı şəhər prokurorluq orqanlarına 21411 müraciət daxil olmuş, həmçinin Bakı Şəhər Prokurorluğunda 2387, tabe rayon (şəhər) prokurorluqlarında isə 6831 olmaqla, ümumilikdə 9218 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir.

Həmçinin vurğulanmışdı ki, 2024-cü il ərzində Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 14925 cinayət hadisəsi qeydiyyata alınmışdır ki, onların 88,8 faizinin açılması təmin olunub.

Bakı şəhərinin daxili işlər orqanları ilə qurulmuş peşəkar əməkdaşlıq münasibətləri zəminində həyata keçirilən tədbirlər nəticəsində hesabat dövründə qeydə alınmış 50, həmçinin ötən illərdən bağlı qalan 2 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilmişdir.

Xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılmış, şəhər prokurorluq orqanları əməkdaşlarından 1 nəfər intizam məsuliyyətinə cəlb olunaraq tutduğu vəzifədən azad edilmiş, 15 əməkdaşa xəbərdarlıq olunmuşdur.

Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev şəhər prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti, müraciətlərə baxılması, vətəndaşların qəbulu, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar vermişdir.

# "Media nümayəndələrinin dağ-mədən sahəsində məlumatlılığının artırılması" layihəsində iştirak etmiş jurnalistlərlə görüş keçirilib

**"AzerGold" QSC-nin təşkilatçılığı, Medianın İnkişafı Agentliyinin (MEDİA) dəstəyi ilə "Media nümayəndələrinin dağ-mədən sahəsində məlumatlılığının artırılması" layihəsinə cəlb edilmiş jurnalistlərlə görüş keçirilib.**










"AzerGold" QSC-nin baş ofisində keçirilən görüşdə səhmdar cəmiyyətin İdarə Heyətinin sədri Zakir İbrahimov, MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov və onlayn media subyektlərini təmsil edən jurnalistlər iştirak ediblər.

Səhmdar cəmiyyətdən verilən məlumata görə, tədbirdə çıxış edən Zakir İbrahimov dövlət tərəfindən milli mətbuatın inkişafına böyük diqqət göstərildiyini, media sahəsində müasir tələblərə uyğun mütəxəssislərin hazırlanması, onların fəaliyyətinin stimullaşdırılması istiqamətində həyata keçirilən səmərəli işlər nəticəsində Azərbaycan mediasının yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb.

Fəaliyyətini yerli qanunvericilik və mütərəqqi beynəlxalq təcrübə, şəffaflıq, hesabatlılıq, informasiya açıqlığı prinsipləri əsasında təşkil edən "AzerGold" QSC-nin mətbuatla əlaqələrin inkişafına önəm verdiyini qeyd edən Zakir İbrahimov səhmdar cəmiyyətin 2024-2026-cı illər üzrə Kommunikasiya Strategiyasının hazırlanıb təsdiq edildiyini, sənədin əsas SMART məqsədlərindən birinin yerli media ilə əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin dağ-mədən sahəsində məlumatlılığının artırılması olduğunu bildirib.

Layihə çərçivəsində təlim və mediaturda iştirak etmiş jurnalistlərlə görüşün milli mətbuatımızın yaradılmasının 150-ci ildönümünün qeyd olunduğu dövrə təsadüf etdiyi xüsusi olaraq vurğulanıb.

MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov isə "AzerGold" QSC-nin jurnalistlərin dağ-mədən sahəsində məlumatlılığının artırılması istiqamətində təşəbbüsünü yüksək qiymətləndirdiyini, bu cür layihələrin 150 yaşlı Azərbaycan jurnalistikasının davamlı tərəqqisi, sahəvi jurnalistikanın inkişafına xidmət etdiyini, nümunəvi xarakter daşıdığını diqqətə çatdırıb.

İcraçı direktor layihə çərçivəsində Gəncə və Daşkəsəndə təşkil edilən təlim və mediaturun dağ-mədən sahəsində media nümayəndələrinin məlumatlılığının artırılması istiqamətində kifayət qədər müsbət nəticələrlə yadda qaldığını, jurnalistlərin sahə üzrə ixtisaslaşması istiqamətində mühüm addımlardan biri olduğunu bildirib.

Daha sonra təlim və mediaturla bağlı təəssüratlarını bölüşən media nümayəndələri layihəni yüksək qiymətləndirib, sahəvi jurnalistikanın inkişafı istiqamətində mühüm təşəbbüslərdən biri kimi xarakterizə ediblər.

Çıxışlardan sonra təlim və mediaturda uğurla iştirak etmiş jurnalistlərə sertifikat və xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, "Media nümayəndələrinin dağ-mədən sahəsində məlumatlılığının artırılması" layihəsi çərçivəsində 19-20 dekabr 2024-cü il tarixlərdə onlayn mediada çalışan bir qrup jurnalistin Gəncə şəhəri və Daşkəsən rayonuna ikigünlük səfəri təşkil edilib.

Səfər çərçivəsində jurnalistlər metal filizi sahələrində həyata keçirilən geoloji kəşfiyyat, hasilat, emal, qiymətli metalın satışının təşkili, eləcə də ətraf mühitin mühafizəsi, hasilat bölgələrində həyata keçirilən korporativ sosial məsuliyyət fəaliyyəti ilə bağlı həm yeni məlumatlara yiyələnib, həm də səfər etdikləri Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsi, eləcə də sosial sahədə görülən işlərlə əyani tanış olublar.

Həmçinin layihə çərçivəsində jurnalistlərin dağ-mədən sahəsinə dair məlumatlılıq səviyyəsinin ölçülməsi məqsədilə təlimdən öncə və sonra test tapşırıqları icra edilib.

*"Azərbaycan"*



# 29 yanvar bələdiyyə seçkiləri günüdür

# Qusarlılar bələdiyyələrə işgüzar adamların seçilməsini istəyirlər

**Bələdiyyə seçkilərinə hazırlıq başa çatır. Bütün dairə və məntəqələrdə seçkilərin demokratik və şəffaf keçirilməsi üçün tələb olunan qaydalar çərçivəsində bütün işlər görülür.**



61 saylı Qusar Seçki Dairəsinin 60 saylı Aşağı Ləgər seçki məntəqəsi kənd tam orta məktəbində təşkil edilib. Məntəqə adıçəkilən kəndi əhatə edir. Seçicilərin sayı 1283 nəfərdir. Məntəqə seçki komissiyasının (MSK) sədri Lamiyə Abdullayeva bildirir ki, kəndin ziyalıları, ictimaiyyət nümayəndələri, demək olar ki, hər gün məntəqəyə baş çəkir, namizədlərin platformaları ilə tanış olur, çıxışlarını dinləyirlər.

Biz məntəqədə olarkən MSK-nın katibləri Bəhram Camiyev və Zaur Məhərrəmov seçici siyahılarını dəqiqləşdirir, üzvləri Aytən Həsənova və Allahyar Əmrahov ardıcıllıq gözlənilməklə növbəlilik sırasını hazırlayır, digər üzvü Valeh Kiçibəyov səsvermə kabinələrinə əl gəzdirir və təbliğat lövhəsində namizədlərin platformalarının yerləşdirilməsinə nəzarət edirdi.

MSK-nın sədri Lamiyə Abdullayevadan öyrəndik ki, məntəqədə 16 nəfər ilk dəfə səs verəcək. Onların hər biri ilə ayrılıqda söhbət aparılmış, yerli idarəetmə orqanlarının fəaliyyəti, vəzifə və hüquqları izah olunmuşdur. Bu söhbətlərdən sonra Leyla Babayeva, Ellada Aslanova, Qədim Qazıxanov və digərləri vaxtaşırı məntəqəyə gəlir, seçkiyə hazırlıq işlərində seçki komissiyasına kömək etmək istədiklərini bildirirlər.

Məntəqə üzrə yaşı 70-dən yuxarı 82 seçici var. Onlar da seçki günü səsvermədə iştirak edəcəklərini deyirlər. Xavər Ağamətova, Gülövşə Balaqardaşova, Söhbət Hacıyev namizədlərlə görüşlərdə də iştirak edirlər.

Məntəqə bütün texniki avadanlıqlarla təmin edilib. Seçki günü kiminsə məntəqəyə gəlməsi mümkün olmazsa, onlar üçün daşınan qutu və maşın ayrılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Seçkilər yaxınlaşdıqca fəallıq yüksəlir

**Ölkəmizin həyatında mühüm əhəmiyyət kəsb edən yerli özünüidarəetmə orqanlarına keçiriləcək bələdiyyə seçkiləri yaxınlaşdıqca, seçicilər və namizədlər arasında fəallıq da yüksəlir. Seçicilər layiq bildikləri namizədlərin bələdiyyələrdə təmsil edilmələri üçün onların platformaları, bioqrafiyaları ilə yaxından tanış olurlar. Bunun üçün məntəqələrdə hər cür şərait yaradılmışdır.**



Ağstafada fəaliyyət göstərən 108 saylı seçki dairəsinin məntəqələrində də hazırlıq işləri yekunlaşır. Dairə seçki komissiyasının sədri Teymurlan Eyyubov məntəqələrdə seçkilərə hazırlığın yüksək səviyyədə olduğunu deyir. Dairəni əhatə edən 47 seçki məntəqəsinin hamısında 47 mindən çox seçicinin istədiyi namizədə sərbəst şəkildə səs verməsi üçün lazımi şərait yaradılmışdır. Seçki məntəqələrinin hamısı təmir olunmuş, lazımi avadanlıqlarla, rabitə və digər texniki vasitələrlə, eləcə də seçkilərin keçirilməsi üçün təlimatlarla təmin edilmişdir. Səsvermənin gedişini izləmək üçün 8 məntəqədə veb-kamera quraşdırılmışdır. Seçkiqabağı təşviqatın aparılması, habelə təşviqat materialları üçün müvafiq yerlər ayrılmışdır.

Dairə seçki komissiyasının sədri onu da əlavə etdi ki, əvvəlkilərdən fərqli olaraq bu seçkilərdə həm ilk dəfə səs verənlərin, həm də yaşı 100-ü keçmiş seçicilərin sayında artım qeydə alınmışdır. Bu seçkilərdə 2 nəfər 100 yaşlı seçici qeydiyyatdan keçmişdir. İlk dəfə səs verəcək gənclərin sayı isə 38 nəfərdir. Onlar da daxil olmaqla seçicilər 239 namizədin arasından 110 bələdiyyə üzvü seçəcəklər. Bu seçimi isə 475 müşahidəçi izləyəcək.

Seçki günü məntəqələrə gəlmək imkanı olmayan seçicilər haqqında da tədbir görülmüşdür. Onların seçkilərdə iştirakını təmin etmək üçün daşınan səyyar seçki qutuları hazırlanmış, evlərə getmək üçün komissiya üzvlərindən ibarət qruplar yaradılmışdır. Bir sözlə, dairəni əhatə edən bütün məntəqələrdə seçkilərin yüksək səviyyədə keçirilməsi üçün hər cür imkan və şərait yaradılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın AQEM-də sədrliyinin prioritet istiqamətləri müzakirə edilib



**Yanvarın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı tərəflər Azərbaycanın AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinin prioritet istiqamətlərini, təşkilat çərçivəsində mövcud işləri və perspektivləri müzakirə ediblər.

Görüşdə ölkəmizin çoxtərəfli diplomatiyada zəngin təcrübəsi və uğurlu sədrlikləri xüsusi vurğulanaraq, Azərbaycan tərəfindən AQEM sədrliyi üzrə təqdim olunmuş konseptual sənədin təşkilatın gələcək inkişafı ilə bağlı, həmçinin ölkələr arasında əməkdaşlığın və etimadın möhkəmlənməsi üçün geniş istiqamətləri əhatə etdiyi məmnunluqla qeyd olunub.

Ceyhun Bayramov ideya müəllifi kimi Qazaxıstanın təşkilatın inkişafında əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb. Sədrliyimiz dövründə təşkilatın beynəlxalq rolunun və səmərəliliyinin daha da artırılması, üzv ölkələr üçün praktiki faydanın genişləndirilməsi, institusional inkişafın təmin edilməsinin vacibliyini qeyd edib. Təhsil, iqlim dəyişmələri, gənclər, media, nəqliyyat bağlantıları və bir çox digər istiqamətlərdə əməkdaşlığın inkişafının önəmi vurğulanıb. Nazir COP29 sədrliyimiz çərçivəsində qlobal iqlim gündəliyi ilə bağlı çox əhəmiyyətli qərarların qəbul edildiyini nəzərə alaraq, iqlim dəyişmələri ilə mübarizə sahəsində AQEM çərçivəsində layihələr üçün potensialın olduğunu bildirib.

Baş katib Kayrat Sarıbay Azərbaycana səfər proqramının kifayət qədər geniş olduğunu, o cümlədən aidiyyəti qurumlarla keçiriləcək görüşlərinin AQEM üçün əhəmiyyət kəsb edən mövzular üzrə ətraflı məlumatın əldə edilməsi və Azərbaycanın sədrliyinin prioritetlərinin müzakirəsi baxımından faydalı olacağını ifadə edib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

# Asiya İnfrastruktur İnvestisiya Bankı ilə əməkdaşlıq müzakirə olunub



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Asiya İnfrastruktur İnvestisiya Bankının baş investisiya direktoru Konstantin Limitovski ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkəmizin Asiya İnfrastruktur İnvestisiya Bankı ilə fəal əməkdaşlıq etdiyi vurğulanıb.

Bankın regionda enerji təhlükəsizliyinin gücləndirilməsinə dəstək olduğu və Azərbaycanda "yaşıl enerji"nin inkişafına töhfə verdiyi qeyd olunub. Bankın üzv ölkələrlə investisiya proqramlarının hazırlanmasında geniş təcrübəyə malik olduğu və əsasən infrastruktur, o cümlədən energetika, nəqliyyat, şəhərsalma, logistika, telekommunikasiya, ətraf mühit və digər sahələrin inkişafına dəstək olduğu bildirilib.

Görüşdə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib və yeni istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# *Kolumbiya mediası:* "Azərbaycanın həmrəyliyi və dostluğu sərhəd tanımır"




**Kolumbiyanın aparıcı xəbər saytı "Las2Orillas"da "Azərbaycan Kolumbiya paramoslarının mühafizəsi məqsədilə 100 min ABŞ dolları ayırıb" sərlövhəli məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Kolumbiyadan çox uzaqda yerləşməsinə baxmayaraq, Azərbaycanın həmrəyliyinin və dostluğunun sərhəd tanımadığı, And dağlarının zirvələrinə qədər gəlib çatdığı qeyd olunur.

Yazıda Azərbaycanın beynəlxalq aləmdə bəşəriyyətin gələcəyi naminə göstərdiyi qabaqcıl səylərlə tanındığı, COVID pandemiyasının ən çətin dövründə Qoşulmama Hərəkatına, planetimizin iqlim dəyişikliyinin kəskin nəticələri ilə qarşılaşdığı vaxtda isə COP29-a uğurla sədrlik etdiyi vurğulanır.

Diqqətə çatdırılır ki, bu, ötən il ərzində Azərbaycan hökuməti tərəfindən Kolumbiyaya ayrılan ikinci humanitar maliyyə yardımıdır və Kolumbiyanın şirin su ehtiyatlarının mənbəyi hesab olunan paramosların mühafizəsi üçün mühüm əhəmiyyət daşıyır. Materialda biomüxtəlifliyin qorunması, su ehtiyatlarının davamlılığının təmin olunması baxımından paramosların vacib rol oynadığına, onların florasının əsasını təşkil edən frailexon bitkilərinin kolumbiyalılar arasında əfsanələşdirildiyinə diqqət çəkilir.

Məqalədə həmçinin humanitar yardımın rəsmi təqdimatı üçün ölkəmizin Kolumbiyadakı səfiri Məmməd Talıbovun Duitama şəhərinə səfər etdiyi, paramosların zəngin fauna və florasının onda olduqca xoş təəssürat yaratdığı bildirilir. Səfirin ətraf mühitin və biomüxtəlifliyin qorunması üçün qlobal səylərin gücləndirilməsinin zəruriliyini, o cümlədən Azərbaycan-Kolumbiya münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini vurğuladığı qeyd olunur.

Kolumbiyalı jurnalist Roberto Trobaxonun müəllifi olduğu məqalə bir sıra digər yerli media qurumları tərəfindən də dərc edilib.

# Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Qarsda birgə qış təlimində iştirak edəcəklər

**Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq, Türkiyənin Qars şəhərində "Qış təlimi - 2025" adlı birgə təlim keçiriləcək. Təlimə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Əlahiddə Ümumqoşun Ordu komandanlığından bayrağı qəbul edən bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda Türkiyənin bayraq taqımı da Qars şəhərindən mərasimin keçiriləcəyi ünvana doğru yürüş edib.

"Ümid" körpüsündə Azərbaycan və Türkiyənin Dövlət himnləri ifa edildikdən sonra bayraqların dəyişmə mərasimi olub.

Sonra təlimə cəlb ediləcək şəxsi heyət və hərbi texnikaların təlim yerinə yola salınması münasibətilə keçirilən tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-mayor Kənan Seyidov çıxış edərək birgə hərbi təlimlərin əhəmiyyətindən danışıb, təlim iştirakçılarına uğurlar arzulayıb.

Tədbirdən sonra təlimə cəlb ediləcək bölmələr Naxçıvan şəhərindən yola düşüblər.

Təlimin planına əsasən, yaşayış məntəqələrində, çətin relyefli ərazilərdə, dərin qar və şiddətli soyuqlarda müxtəlif təlim-döyüş tapşırıqlarının yerinə yetirilməsi nəzərdə tutulub.

## “Böyük qayıdış” proqramı sürətlə icra olunur

# Daha 28 keçmiş məcburi köçkün ailəsi doğma yurda qovuşub

### Xocalıda sakinlərə evlərinin açarları təqdim olunub








**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı davam edir. Yanvarın 15-də Xocalı şəhərində, Xocalı rayonunun Ballıca kəndində və Şuşa şəhərində ümumilikdə 28 ailə olmaqla, 135 nəfər keçmiş məcburi köçkün doğma yurda qovuşub.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Xocalı rayonunun Ballıca kəndində keçmiş məcburi köçkünləri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarları təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.

Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli keçmiş məcburi köçkünləri təbrik edərək onlara xoşbəxt və firavan həyat arzulayıb. Bildirib ki, Xocalı şəhəri bu gün artıq ümidlərin, arzuların məkanıdır. Otuz ildən çoxdur ki, işığı sönmüş evlərdə çıraqlar yanır, gülüş səsləri eşidilir. İndiyədək Ballıca kəndinə ümumilikdə 68, Xocalı şəhərinə isə 52 ailə köçürülüb. İşğaldan azad olunmuş ərazilərə köç prosesi 2025-ci ildə də mərhələli şəkildə davam etdiriləcək.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 30 mindən artıq insan yaşayır.

## *Xocalıya köçən şəhid anası:* "Doğma torpaqlara qayıtmağı hər birimiz arzulamışıq"




**Bu gün mən işğaldan azad olunmuş torpaqlara böyük qürurla gəlmişəm. Həm kədərliyəm, həm də sevincliyəm. Kədərim nə qədər acı olsa da, sevincim ondan da çoxdur. Çünki torpaqlarımız azaddır.**

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Xocalıya köç edən keçmiş məcburi köçkün, şəhid anası Adilə Ramazanova deyib.

"Bu günləri - doğma torpaqlara qayıtmağı hər birimiz arzulamışıq. Prezidentimizə minnətdarlığımı bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin. Allah həmişə xalqımıza xoş günlər, firavanlıq nəsib etsin", - deyə keçmiş məcburi köçkün bildirib.

## *Ballıca kəndinin sakini:* "Hər zaman ürəyimizdə bir ümid var idi ki, biz qayıdacağıq"




**Dünya cənnətə dönsə də, Vətənin yerini heç nə vermir. Ölkəmizin hər yeri bizim üçün Vətəndir. Amma hara getsək də, harada yaşasaq da, qəlbimiz hər zaman doğma yurdumuz Qarabağla döyünüb.**

Bu sözləri Ağdamda AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Xocalının Ballıca kəndinə köç edən keçmiş məcburi köçkün Şura Əliyev deyib.

"Otuz ildən də çox bir müddətdə doğma yurdumuzdan ayrı qaldıq. Bu torpaqlara qayıtmaq əlçatmaz bir arzu kimi görünürdü. Ancaq ürəyimizdə bir ümid var idi ki, biz qayıdacağıq. Allaha çox şükürlər olsun ki, arzularımız gerçəyə çevrildi", - deyə keçmiş məcburi köçkün bildirib.

## *Keçmiş məcburi köçkün:* "Doğma torpaqlara böyük qürur və sevinclə qayıdırıq"




**Doğma torpaqlarımızı tərk edəndə mənim 9 yaşım var idi. Uşaqlığım, gəncliyim köçkünlükdə keçdi. Bu illərdə dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunsaq da, həmişə Vətən həsrəti ilə yaşadıq.**

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Xocalıya köç edən keçmiş məcburi köçkün, Vətən müharibəsi qazisi İlqar Məmmədov deyib.

Həm 2016-cı il Aprel döyüşlərinin, həm də 2020-ci il 44 günlük Vətən müharibəsi iştirakçısı olan İlqar Məmmədov bu gün doğma torpaqlara böyük qürur hissi ilə gəldiyini vurğulayıb. "44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarımızı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad etdik. İndi isə ANAMA əməkdaşı olaraq həmin əraziləri düşmənin basdırdığı minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsində iştirak edirəm. Bu günə şükürlər edirəm ki, uzun illər xəyallarımda yaşatdığımız doğma torpaqlara böyük qürur və sevinc hissi ilə qayıdırıq", - deyə o bildirib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan ombudsmanı beynəlxalq insan hüquqları təşkilatlarına açıq məktub ünvanlayıb

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi etnik təmizləmə və deportasiya siyasəti ilə bağlı beynəlxalq insan hüquqları təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına açıq məktub ünvanlayıb. AZƏRTAC məktubu təqdim edir:**



"Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti əsrlər boyu davam edib və müxtəlif tarixi dövrlərdə açıq şəkildə özünü göstərib.

Bu məkrli siyasətin 1990-cı illərdə daha da genişləndirilməsi, həm vəzifəli şəxslər, həm də fərdi insanlar, qruplar və təşkilatlar vasitəsilə azərbaycanlı əhaliyə qarşı etnik nifrətə əsaslanan, genişmiqyaslı və sistematik zorakılıq, soyqırımı aktlarının törədilməsi, Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində yaşayan yüz minlərlə soydaşımızın öz tarixi ata-baba yurdlarından zorla qovulmasına səbəb olub.

Ermənistanın iştirakçısı olduğu beynəlxalq müqavilələrə zidd olaraq həyata keçirdiyi bu cinayət aktları ölkənin keçmiş liderləri Levon Ter-Petrosyan, Robert Köçəryan və Serj Sarkisyan tərəfindən dəfələrlə etiraf edilib.

Ermənistanın Birinci Qarabağ müharibəsində iştirak etmiş sabiq prezidenti Serj Sarkisyanın Xocalı soyqırımı ilə bağlı söylədiyi fikirlər açıq şəkildə etnik nifrətə dəstək verdiyini göstərib. Belə ki, S.Sarkisyan britaniyalı jurnalist Tomas de Vaal ilə müsahibəsində Xocalı soyqırımının törədilməsinin məqsədini etiraf edib. Onun bu açıqlamaları soyqırımının Ermənistan rəhbərliyi tərəfindən məqsədli şəkildə planlaşdırıldığını və Azərbaycan xalqına qarşı nifrətə əsaslandığını bir daha ortaya qoyur. Bu etiraflar Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi cinayətlərin geniş miqyasını və sistematik şəkildə həyata keçirildiyini aydın şəkildə göstərir.

Son günlər Levon Ter-Petrosyanın mediada və sosial şəbəkələrdə yayılan videolarında söylədiyi fikirlər də Qərbi Azərbaycandan soydaşlarımızın zorla qovulması, Qarabağ və ətraf ərazilərdə törədilən soyqırımlarının məhz onların rəhbərliyi altında məqsədli olaraq həyata keçirildiyini bir daha təsdiqləyir.

Videoya baxdıqda aydın olur ki, Ermənistanın birinci prezidenti azərbaycanlıların Ermənistandan qovulmasının erməni şovinistlərinin Azərbaycana qarşı ərazi iddialarını gerçəkləşdirmək üçün aparılan siyasətin tərkib hissəsi olduğunu açıq şəkildə etiraf edib. Bu məqsədlə Basarkeçər, Uluxanlı, Amasya və bütövlükdə Zəngəzurda əhalinin əksəriyyətini təşkil edən azərbaycanlılara qarşı qəsdən etnik təmizləmə tədbirlərinə hazırlıq görülüb.

Levon Ter-Petrosyan öz çıxışında azərbaycanlıların Ermənistandan zorla qovulmasını "erməni xalqının böyük uğuru" kimi dəyərləndirmiş və yalnız bu addımla Ermənistanın müstəqillik yolunda irəlilədiyini iddia edib. Onun sözlərinə görə, Ermənistan və Qarabağın azərbaycanlılardan tamamilə təmizlənməsi, erməni xalqının əsrlər boyu həll edə bilmədiyi bir "problemi" aradan qaldırmaq deməkdir: "Bizim ən böyük xoşbəxtliyimiz odur ki, biz milislərimizin işini təşkil etdik. Yaradılan silahlı dəstələr ordumuzun dayağı oldu. Beləliklə, biz hələ Ermənistan və Azərbaycan müstəqillik əldə etməmişdən əvvəl çox böyük təcrübə qazanmışdıq. Ermənistan və Qarabağ başqa millətlərdən tamamilə təmizlənib. Bir daha təkrar edirəm, bu, 600 illik problem idi. Erməni xalqı bundan daha 600 il sonra onun əhəmiyyətini hiss edəcək. Təsəvvür edin, əgər bu gün Ermənistanda 1988-ci ilə qədər buradakı 170 min başqa millətdən (azərbaycanlı) insan olsaydı, bizim dövlətimiz olmazdı. Biz nə şimal, nə şərq rayonlarımızı, nə də Sevanı (Göyçə gölünü) qoruya bilərdik. Üstəlik, burada üç yeni problemlə üz-üzə qalacaqdıq. Unutmayın ki, üç bölgədə azərbaycanlılar çoxluq təşkil edirdi. Bunlar Vardenis (Basarkeçər), Masis (Uluxanlı) və Amasya rayonları idi. Azərbaycanlılar Zəngəzurda da çoxluq təşkil edirdilər. Nə yaxşı ki bu problem vaxtında həll olundu".

Bu sözlər bir daha təsdiq edir ki, Ermənistanın azərbaycanlılara qarşı tətbiq etdiyi zorakı tədbirlər və etnik təmizləmə siyasəti məqsədyönlü, sistemli və düşünülmüş şəkildə həyata keçirilmişdir. Levon Ter-Petrosyanın erməni milli hərəkatının hərbi qanadı "Yerpaka" üzvlərinin qarşısında söylədiyi bu fikirlər Ermənistan rəhbərliyinin faşist və millətçi ideologiyaya əsaslanan siyasətini, Azərbaycana qarşı nifrət və kin bəslədiyini açıq şəkildə nümayiş etdirir.

Ermənistanda əhali arasında dövlət səviyyəsində anti-Azərbaycan və antitürk nifrətinin formalaşdırılması və ötən dövr ərzində daha da inkişaf etdirilməsi uzun illər ərzində Azərbaycana qarşı törədilmiş beynəlxalq cinayətlərin əsas səbəblərindən birini təşkil edib.

Ermənistanın azərbaycanlılara qarşı törətdiyi çoxsaylı sülh və insanlıq əleyhinə, həmçinin müharibə cinayətləri, soyqırımı, etnik təmizləmə və deportasiya aktları ilə bağlı kifayət qədər əsaslı sübut və dəlillər mövcuddur. Bu faktlarla bağlı beynəlxalq qurumlara dəfələrlə müvafiq hesabatlar, bəyanatlar və müraciətlər göndərilsə də, Azərbaycana qarşı tətbiq olunan ikili standartlar nəticəsində həmin beynəlxalq cinayətlərə hələ də adekvat reaksiya verilmir. Xüsusilə təəssüf doğuran hallardan biri də odur ki, son dövrlərdə Ermənistan tərəfindən bu cinayətlərin inkar edilməsi, əksinə, beynəlxalq ictimaiyyətdə Azərbaycana qarşı mənfi münasibət yaradılması üçün əsassız iddiaların irəli sürülməsi tendensiyası müşahidə olunur.

Bundan əlavə, təqdim etdiyimiz hesabatlardan aydın olduğu kimi, ötən dövr ərzində iştirakçısı olduğu beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər Ermənistan tərəfindən nəinki nəzərə alınmayıb, əksinə, həmin sənədlərdə təsbit olunmuş fundamental insan hüquq və azadlıqları daha geniş şəkildə və kobud formada pozulmağa davam edib.

Beynəlxalq sənədlər Ermənistanın üzərinə, onun ərazisindən qovulmuş azərbaycanlıların hər hansı bir ayrı-seçkiliyə yol verilmədən, sülh yolu ilə öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasına şərait yaratmaq da daxil olmaqla, onların hüquqlarının bərpası və qorunması sahəsində konkret öhdəliklər qoyur. Buna görə də vaxtilə indiki Ermənistan ərazisindəki tarixi torpaqlarından qovulmuş azərbaycanlıların öz vətənlərində yaşamaq hüququna malik olmaları, əzəli, toxunulmaz, mütləq və həlledici bir faktor kimi qəbul edilərək təmin olunmalıdır. Ermənistanın milli hüquqi çərçivəsi azərbaycanlılar üçün əlçatan olması məqsədilə təkmilləşdirilməli, onların bərabər hüquqları təmin olunmalı, ana dillərində təhsil almaq, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında Azərbaycan dilindən istifadəyə imkan yaradılmalıdır.

Hesab edirəm ki, 300 minə yaxın azərbaycanlının indiki Ermənistan ərazisindən qovulması dünyada presedenti olmayan ədalətsiz qərar kimi pislənilməli, onların ləyaqətli və təhlükəsiz qayıdış hüququnun təmini daim beynəlxalq ictimaiyyətin diqqətində olmalı, bu vəziyyətin davam etməsi beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi qəbul edilməlidir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq, bundan dərin təəssüf hissi keçirdiyimizi bildirərək, beynəlxalq təşkilatları, xarici ölkələrin ombudsmanlarını və milli insan hüquqları təsisatlarını ikili standartlara yol vermədən, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında Azərbaycana münasibətdə qətiyyətli və ədalətli mövqe nümayiş etdirməyə dəvət edir, eyni zamanda sözügedən problemin ədalətli həllinə nail olmaq məqsədilə aşağıdakı məsələlərlə bağlı qəti addımlar atmağa çağırıram:

1. Ermənistanın sabiq prezidentinin etiraflarında yer alan dəhşətli faktların araşdırılması istiqamətində beynəlxalq səviyyədə təsirli tədbirlərin görülməsi;

2. Ermənistan tərəfindən azərbaycanlılara qarşı irqi və etnik-dini zəmində ayrı-seçkilik səbəbindən törədilmiş soyqırımı aktlarının tanınması, etnik təmizləməyə və deportasiyaya məruz qalmış soydaşlarımızın Qərbi Azərbaycana (indiki Ermənistana) - öz tarixi ata-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışının təmin olunması, beləliklə də onların pozulmuş hüquqlarının tezliklə bərpa olunmasına dəstək göstərilməsi;

3. İndiki Ermənistandan qovulmuş azərbaycanlıların öz tarixi yurdlarına qayıdışı həyata keçirildikdən sonra onların beynəlxalq hüquq normalarında təsbit olunmuş bütün fundamental hüquq və azadlıqlarının qorunmasına təminat verilməsi;

4. Azərbaycanlılara məxsus mülkiyyətin, o cümlədən müxtəlif təyinatlı torpaq sahələrinin sahiblərinə geri qaytarılması, onlara vurulmuş zərər və mülkiyyətdən istifadənin qarşısının alınması səbəbindən yaranmış itkilərlə əlaqədar kompensasiya ödənilməsi, mülkiyyət hüququnun bərpasından irəli gələn bütün xərclərin qarşılanması və digər zəruri tədbirlərin görülməsinin Ermənistan hökuməti tərəfindən təmin edilməsi;

5. İndiki Ermənistan ərazisində və işğal dövründə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazisində azərbaycanlılara məxsus mülklərin, tarixi-mədəni və dini abidələrin Ermənistan tərəfindən dağıdılması, talan edilməsi, mənimsənilməsi, mənşəyi və təyinatının dəyişdirilməsi kimi sistematik vandalizm siyasətinə məruz qalmasının beynəlxalq cinayət kimi qiymətləndirilməsi və bununla bağlı zəruri addımlar atılması;

6. Ermənistan hökumətindən azərbaycanlılara qarşı irqi, etnik-dini zəmində nifrət və ayrı-seçkiliyi təşviq edən əməllərdən çəkinməleri və xüsusilə də bu fəaliyyətə uşaqların cəlb olunmasına yol verilməsinin qarşısının alınmasının tələb edilməsi;

7. Azərbaycanlılara qarşı nifrəti təbliğ edən və gənc nəslin formalaşdırılmasında istifadə olunan ədəbiyyatların qadağan edilməsi;

8. Dövlət nümayəndələrinin və siyasi xadimlərin azərbaycanlılara və Azərbaycana qarşı nifrət zəminində çıxışlarına son verilməsi.

Ümid edirəm ki, beynəlxalq insan hüquqları təşkilatları, xarici ölkələrin ombudsmanları və milli insan hüquqları təsisatları, bütövlükdə isə dünya ictimaiyyəti bu məsələyə ciddi yanaşacaq və Azərbaycanın ərazilərində törədilən cinayətlərin ədalətli şəkildə araşdırılmasına, həmçinin azərbaycanlıların hüquqlarının bərpasına öz dəstəyini əsirgəməyəcəklər".

## ABŞ demokratik dəyərlərdən dərs keçmək niyyətini kənara qoymalıdır

**"ABŞ-nin Azərbaycandakı səfirliyinin bəyanat yayaraq "Azərbaycanı beynəlxalq öhdəliklərini yerinə yetirməyə və haqsız yerə həbs olunanları azad etməyə" çağırması ikiüzlülük və ümumbəşəri dəyərlərlə pərdələnərək ölkəmizin daxili işlərinə qarışma cəhdidir. Görünən odur ki, Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində qələbəsi ilə yaratdığı geosiyasi reallıq ABŞ-ni hələ də narahat edir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, Vaşinqton ənənəsinə uyğun olaraq "insan haqları" və "demokratiya" kimi amillərlə pərdələnərək Azərbaycan dövlətinin daxili işinə qarışmağa çalışır, o cümlədən tarixinin ən sabit və ən güclü dövrünə qədəm qoymuş Azərbaycanda daxili gərginlik mühiti formalaşdırmaqla "parçala və hökm sür" siyasəti həyata keçirməyi arzulayır. ABŞ-nin Azərbaycandakı səfirliyi ölkəmizi "haqsız yerə həbs edilmiş bütün şəxsləri azad etməyə" çağırmaqla 1961-ci il Vyana Konvensiyasının tələblərini kobud şəkildə pozmaqla bərabər, həm də Azərbaycanın ədalət mühakiməsini və digər cinayət təqibi orqanlarının fəaliyyətini şübhə altına almağa cəhd edib, dövlət hakimiyyəti orqanlarını etibarsızlaşdırmağa çalışıb. Əgər Amerika Birləşmiş Ştatlarını, həqiqətən də, insan haqları və demokratiya maraqlandırırsa, Vaşinqton ilk növbədə öz sərhədləri daxilində bu prinsiplərə, anlayışlara hörmətlə yanaşmalıdır. "Ölkədə ana müxalifətin prezidentliyə əsas namizədinin hər kəsin gözü qarşısında güllələnməyə cəhd edilməsi, habelə ona münasibətdə bütün məhkəmə və inzibati orqanların gücündən tam şəkildə istifadə olunması fonunda ABŞ demokratik dəyərlərdən dərs keçmək niyyətini bir kənara qoymalı, ilk növbədə öz daxilində müşahidə olunan yolverilməz nöqsanlara köklənməlidir. Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrinə əsaslanaraq Konstitusiyasını qəbul edərkən ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ali niyyət kimi müəyyənləşdirib. Ölkəmiz, o cümlədən ABŞ ilə münasibətlərin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulmasında və hər iki dövlətin və xalqlarımızın mənafeyinə xidmət edən formada inkişafında daim maraqlı olub. Ötən dövr ərzində Azərbaycan istər enerji təhlükəsizliyi, istərsə də qlobal təhlükəsizlik konfiqurasiyasının formalaşması istiqamətində ABŞ ilə ciddi əlaqələr qurub, qarşıya qoyulan hədəflərə çatılması istiqamətində kifayət qədər səmimi davranıb. Lakin təəssüflər olsun ki, ABŞ yalnız birtərəfli qaydada öz maraqlarını düşünərək regionda sülh, sabitlik, inkişaf, təhlükəsizlik amillərinə yalnız imperialist prizmadan yanaşıb, nəticə etibarilə Vaşinqton üçün ümumbəşəri dəyərlər ikinci, üçüncü, hətta daha arxa plana keçib", - deyə o bildirib.

Deputat qeyd edib ki, ötən dövr ərzində Vaşinqton Azərbaycan və Ermənistan arasında münaqişənin davamlılığı üçün bütün imkanlarını səfərbər edərək vasitəçiliyini daha çox münaqişənin həll edilmədən dondurulmasına, Azərbaycanın işğal və təcavüzlə barışdırılmasına, beləliklə, bölgədə daim köməyinə ehtiyac duyulan subyekt olaraq Amerikanın mövcudiyyətinə zərurət yaratmağa yönəldib. Lakin Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində müstəsna qələbələri bu regionda sülh və əmin-amanlıq, dayanıqlı sabitlik üçün unikal tarixi imkan yaradılıb, qlobal miqyasda əsas problemlərdən biri hesab edilən separatizmlə mübarizədə effektiv və həlledici yol xəritəsi ortaya qoyulub, işğal və təcavüzə son qoyulmaqla beynəlxalq hüququn aliliyi təmin edilib. Bu situasiya, əslində, ABŞ-nin də qələbəsi hesab edilməli idi, çünki BMT Təhlükəsizlik Şurasının əsas üzvlərindən biri və hakim mövqeyə malik subyekti kimi erməni işğalı və təcavüzünü pisləyən bu şuranın 4 qətnaməsinin o zamana qədər icra olunmamasına görə məsuliyyət və utanc daşıyan qlobal fiqurlardan biri idi. Hərbi-siyasi qələbələri ilə 30 illik işğala və təcavüzə son qoymaqla Azərbaycan beynəlxalq hüququn aliliyini təmin edərək həm də ABŞ-nin özünü utancdan xilas etdi. Lakin ABŞ bu dəfə də göstərdi ki, onun üçün vacib olan beynəlxalq hüququn aliliyi, qlobal təhlükəsizlik deyil, təcavüzkar mahiyyətdə ifadə olunan imperialist niyyətlərdir.

B.Məhərrəmov bildirib ki, Vətən müharibəsindən sonra ABŞ-nin ayrı-ayrı strukturlarının, o cümlədən hakimiyyətin birbaşa himayəsi altında olan media qurumları və "beynəlxalq insan haqları" təsisatlarının bəyanatlarında mövcud reallığı qəbul etməyən və Cənubi Qafqazda sülh və sabitlik ehtimalından ciddi narahat olan bir mövqe müşahidə edilməyə başlanılıb: "Antiterror tədbirlərindən sonra isə artıq ABŞ-nin Dövlət Departamenti bütün diplomatik etiketi və beynəlxalq hüququn prinsipial tələblərini bir kənara qoyaraq media nümayəndələrinin, yaxud insan haqları təsisatlarının dili ilə yox, birbaşa Azərbaycana münasibətdə qarayaxma kampaniyasının fiquruna çevrildi. Əlbəttə, ABŞ-nin bu davranışları bizim üçün təəccüblü deyildi, çünki Azərbaycan dəfələrlə bu ölkədən ikili standartları müşahidə etmişdi. 1990-cı illərin əvvəllərində Xocalı və digər çoxsaylı soyqırımı cinayətlərinə, o cümlədən işğal və təcavüzə məruz qaldığımız bir dönəmdə ABŞ ikili standartlar nümayiş etdirərək "Azadlığa Dəstək Akt"ına 907-ci düzəlişi qəbul etməklə, əslində, işğalı, təcavüzü dəstəklədiyini göstəmişdi. Yaxud möhtərəm Prezident İlham Əliyevin Cəbrayıl rayonunun ictimaiyyəti ilə görüşündə də ifadə etdiyi kimi, Əfqanıstan missiyası zamanı Azərbaycanın köməyinə ehtiyac duyduğu zamanlarda ölkəmizin ünvanına təriflər yağdıran Ağ Ev administrasiyaları ABŞ qoşunları Əfqanıstandan çıxdıqdan sonra Azərbaycana münasibətdə maskalarını da çıxarıb atmışdılar. Bu mənada, ABŞ-nin yenidən işğalın, təcavüzün, separatizmin, çoxsaylı hərbi-siyasi cinayətlərin hamisi kimi çıxış etməyə başlaması bizim üçün gözlənilməz olmadı".

Deputat qeyd edib ki, Prezident İlham Əliyevin qətiyyəti, artan güc və imkanları, xüsusən qələbələrimizdən sonra regionda yaratdığı geosiyasi konfiqurasiya fonunda Azərbaycan dövləti özünün milli maraqlarını əminliklə qoruya və realizə edə biləcək güc kimi özünü dəfələrlə təsdiq edib. Cənab İlham Əliyevin müəllifi olduğu bu situasiya ABŞ-yə dünyanın digər bölgələrində davrandığı kimi hərəkət etmək imkanı vermir. Buna görə də, Vaşinqton əvvəlki çoxsaylı uğursuz hücum dalğalarından sonra Azərbaycana münasibətdə yeni kampaniya başlatmaq üçün məqam gözləməkdə idi. Azərbaycanda 5-ci kolon funksiyası yerinə yetirən təşkilat və fərdlərə münasibətdə qanunun aliliyi, ədalət və humanizm prinsipləri rəhbər tutulmaqla həyata keçirilən cinayət təqibləri bu mənada ABŞ-nin Soros iqtidarı üçün yanlış olaraq "uğurlu" istinad kimi görünməyə başladı. Müşahidələr də göstərir ki, imperialist niyyətlər naminə ayırıcı xətlərin daha da dərinləşməsi prosesini intensivləşdirən Bayden administrasiyası gözlənildiyi kimi, bu prosesə özünün proksi qurumlarını daha aktiv formada cəlb etməkdə və Cənubi Qafqazda situasiyanın gərginləşməsində israrlıdır. Bu prosesdə ABŞ Dövlət Departamentinin marionet təsisatları olan, "demokratiya", "siyasi azadlıqlar", "insan hüquqları və onların müdafiəsi" ilə məşğul olduğunu iddia edən "Freedom House", "Human Rights Watch", "Amnesty International" kimi təxribatçı birliklər, o cümlədən muzdlu media orqanları artıq vahid tezis üzrə hərəkət etməkdədir. Bu, əslində, Bakıda təəccüblə və hətta təəssüflə də qarşılanmır. Bildiyiniz kimi, Prezident İlham Əliyev hələ 2023-cü il iyunun 20-də Çinin "China Media Group" media korporasiyasına müsahibəsində "Freedom House" və digər oxşar təsisatları ifşa etmiş və bildirmişdi: "Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, "Human Rights Watch", "Amnesty International" və "Freedom House" müstəqildirlər. Baxın onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar".

Deputat bildirib ki, dövlətlərin daxili işlərinə qarışılmasının yolverilməzliyinin beynəlxalq hüququn ümumtanınmış 10 prinsipindən biri olmasına baxmayaraq, Qərb imperializmi dövlətlərin daxili yurisdiksiyasında olan bir çox məsələlərə, o cümlədən vətəndaşların sərbəst iradə ifadəsini realizə edə biləcəyi situasiyaya, habelə məhkəmə-hüquq fəaliyyətinə açıq formada müdaxilə edir: "Sirr deyil ki, işğal və təcavüzün yeni metod və forması kimi tətbiq olunan və "demokratiya" və "insan haqları" naminə pərdələnərək həyata keçirilən bu tip müdaxilələr Qərb imperializmi, ələlxüsus ABŞ üçün xarakterik davranışdır. Lakin ötən dövr ərzində Prezident İlham Əliyev qətiyyətli gedişlərlə Qərb imperializminin bütün təsir mexanizmlərini fiaskoya uğratmaqla, çoxsaylı "inqilab" cəhdlərini tam neytrallaşdırmaqla göstərdi ki, Cənubi Qafqazda situasiya nə qədər həssas olursa olsun, milli mövqe sərgiləməklə imperialist müdaxilələrə son qoymaq mümkündür. Təbii ki, bu, marionet iqtidarlar axtarışında olan, yaxud milli iradəni kukla rejimlərlə əvəzləməyi hədəfləyən Soros terror təşkilatı üçün sərfəli deyil. Bu mənada, ayırıcı xətləri dərinləşdirərək dövlətləri bu və ya digər düşərgəyə aid etməsi, o cümlədən Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin səlahiyyətinə aid olmayan məsələlərə dair açıqlama yayaraq "Azərbaycanı beynəlxalq insan hüquqları öhdəliklərinə əməl etməyə dair" ucuz çağırışı qeyri-dost niyyətli populizm olmaqla yanaşı, birmənalı şəkildə Qərb üçün sərfəli olmayan status-kvonu dəyişməyə hesablanılan səlib yürüşünün müasir forması hesab edilməlidir. Bu, bir daha sübut edir ki, "demokratiya", "humanizm", "insan haqları" idealları ilə pərdələnən qlobal güclər, əslində, ikili standartlarla yaşayan riyakar imperialistlərdir".

B.Məhərrəmov deyib ki, böyük əksəriyyəti terror birləşmələrinin üzvü olan erməni lobbisinin kollektiv Qərbin anti-Azərbaycan mövqe tutan ölkələrində böyük infrastruktura malik olması, siyasətçiləri ələ alması, özlərinin parlamentə, mətbuata və hökumət orqanlarına yol tapmaları bir çox hallarda azərbaycanofobiya mühitinin yaradılması üçün əsas ola bilir. Həmçinin Soros cameəsində və Bayden iqtidarında eyni durum hakimdir. Lakin Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında Azərbaycanın regionda yaratdığı hərbi-siyasi reallıq, o cümlədən beynəlxalq müstəvidə əldə olunan uğurlar, qlobal platformalarda aydın üstünlüyümüz bu kimi hesabatların qarşısına qoyduğu məqsədləri tam şəkildə neytrallaşdırmağa, həmin güclərin özlərinin ifşasına gətirib çıxarır. Hətta Azərbaycan nümunəsi neoimperializmlə mübarizədə ümid işığına çevrilir. Məsələn, Azərbaycanın Cənubi Qafqazda Qərb imperializminə qalib gələrək ərazi bütövlüyünü və suveren haqlarını tam şəkildə bərqərar etməsi, separatizmə son qoyması fonunda yaranan yeni geosiyasi konfiqurasiyada bir sıra dövlətlər, həmçinin qonşu Gürcüstan da düşdüyü real durumu doğru təhlil edərək ABŞ-nin təzyiq mexanizmlərini minimuma endirmək istiqamətində müəyyən səylərə start verib. Gürcüstanın suverenliyinə xidmət edən bu təşəbbüslər Qərbin təcavüzkar niyyətlərinin qarşısının alınması istiqamətində təsiredici addımlar kimi çıxış etməkdədir. Bir sözlə, zaman lehimizə işləyir və ucuz, populist bəyanatlar Azərbaycanın artan güc, imkan və təsirləri qarşısında hər hansı formada səddə çevrilmə perspektivinə malik deyil.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Azərbaycan sülh istəyir

### Paşinyan isə sülh müqaviləsini siyasi alver predmetinə çevirmək niyyətindədir

**Azərbaycanın mövqeyi qəti və aydındır. İstəyir ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun. Ermənistan isə sülhdən yayınır. Bu gün "mələk donu" geyinib özünü "sülh göyərçini" kimi göstərmək istəyən Ermənistanın baş naziri Nikol Paşinyanın yeganə məqsədi sülh müqaviləsi ətrafında hiyləgərcəsinə manipulyasiya edib vaxt qazanmaqdır.**



Xatırladaq ki, Prezident İlham Əliyev dekabrın 17-də rusiyalı jurnalist Dmitri Kiselyova verdiyi müsahibəsində sülh sənədinin 17 maddəsindən 15-nin razılaşdırıldığını qeyd etmişdi. Danışıqlarda razılaşdırılmayan iki əsas məqam isə Ermənistanın konstitusiyada dəyişiklik etməməsi və ATƏT-in Minsk qrupunun ləğvi məsələsidir.

Məlumdur ki, ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılsa da, "fəaliyyətdə" olduğu illərdə bu məsələdə heç bir rol oynamadı. Əslində, münaqişənin həlli əvəzinə problem yaratmaqla Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında qalması üçün illərlə səy göstərdi.

Azərbaycan hərbi yolla öz torpaqlarını azad etdikdən sonra Prezident İlham Əliyev ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dən olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edərək bu qurumun 30 ilə yaxın dövr ərzində fayda vermədiyini vurğuladı.

Dövlətimizin başçısı 2024-cü il fevralın 18-də ATƏT-in baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti Helqa-Mariya Şmidlə görüşündə də ATƏT çərçivəsində keçmişin qalıqları olan bir sıra mexanizmlərin - Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Komitəsi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi tamamilə fəaliyyətsiz strukturların artıq ləğv edilməsinin vaxtının çoxdan yetişdiyini bildirdi.

Ermənistanın baş naziri Nikol Paşinyan əgər sülh danışıqları prosesində səmimidirsə, Ermənistanın Azərbaycana ərazi iddiası yoxdursa, ATƏT-in Minsk qrupunun ləğvi məsələsi bu gün həll olunmamış məsələ kimi müzakirə mövzusu olmamalı idi. Bu qurum, əslində, çoxdan ləğv edilməliydi.

Məsələ ondadır ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan Fransa 2020-ci ilin sentyabrına kimi Cənubi Qafqazda ölkəmizə qarşı mənfur planlarını bu qurum vasitəsilə həyata keçirirdi. Əslinə qalsa, Ermənistan 2020-ci ilin payızından Cənubi Qafqazdan əli çıxan Fransanın və ATƏT-in həmsədrliyində təmsil olunan və hər vasitə ilə Cənubi Qafqaza nəzarət etmək istəyən dövlətlərin əlində girova çevrilib. Aydın məsələdir ki, müstəqil siyasət yürüdə bilməyən, "böyük dövlətlər" qarşısında siyasi öhdəlikləri və iqtisadi asılılığı olan Ermənistanın baş naziri Paşinyan müstəqil siyasət yürüdə bilmir və asılı olduğu dövlətlərin sifarişini yerinə yetirmək zorunda qalıb.

Bir tərəfdən sülh müqaviləsini imzalamağa hazır olduğunu təkrarlayan Ermənistan rəhbərliyi, digər tərəfdən dayanmadan ölkəsini silahlandırmağa çalışır. Heç şübhəsiz ki, Ermənistanda gedən silahlanma prosesi Cənubi Qafqaz üçün yeni təhdid amilidir.

Sülhdən dəm vuran Nikol Paşinyan Azərbaycan Prezidentinin yerli televiziya kanallarına verdiyi müsahibədən sonra "Feysbuk" səhifəsində Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasına dair fikirlərini yayımlayıb. Bəs 12 bənddən ibarət bu açıqlamaya baxanda nə görünür? Sən demə, Paşinyanın düşüncəsinə görə, atəşkəs rejiminin pozulması hallarının araşdırılması üçün birgə mexanizmin tətbiqi. Bu nə deməkdir?

Məlumdur ki, Fransa Ermənistanın Azərbaycanla sərhədinə "mülki müşahidəçi" adı ilə sabiq jandarm qüvvələrindən ibarət kontingent yerləşdirib. Fransa və Ermənistana himayədarlıq edən digər dövlətlər yaxşı bilirlər ki, əgər sərhəddə atəşkəs pozularsa, bunu edən Ermənistandır və onlar bu işi öz ağılları ilə yox, Qərbdən gələn tapşırıq əsasında edirlər. "Mülki müşahidəçilər" də müşahidə aparmaqdan, atəşkəs rejiminə nəzarət etməkdən daha çox kəşfiyyat materialları toplamaqla məşğuldurlar.

Azərbaycan öz sərhədində hər hansı bir dövlətin hərbi qüvvəsinin olmasını istəmir. Ermənistan da bunu bilməmiş deyil. Heç şübhəsiz ki, Ermənistanın baş naziri "birgə mexanizm" dedikdə, məqsədi bağlanacaq sülh müqaviləsində "havadar"larının arzularını rellaşdırmaq, sərhədlərdə hansısa dövlətin və ya "beynəlxalq təşkilatın" maraqlarını təmin edə biləcək qüvvələr üçün xüsusi status almaqdır. Azərbaycan bunu nəinki şərt olaraq qəbul etməz, hətta müzakirəyə çıxarılmasına belə imkan verməz.

Paşinyanın açıqlamasında yer alan məsələlərdən biri də Bakıda saxlanılan ermənilərin məsələsinin tam həllidir.

Nikol Paşinyanın soyuqqanlılıqla "saxlanılan şəxslər" deyəndə Qukasyan (Ğukasyan) Arkadi Arşavir (Arşaviroviç), Harutyunyan Arayik Vladimir (Vladimiroviç), Sahakyan Bako Sahak, İşxanyan Davit Ruben, Babayan Davit Klim (Klimoviç), Mnatsakanyan Lyova Henrix, Manukyan Davit Azat, Martirosyan Qarik Qriqor, Paşayan Melikset Vladimir, Allahverdiyan Davit Nelson, Stepanyan Qurqen Homeros, Balayan Levon Romik, Babayan Madat Arakel (Arakeloviç), Beqlaryan Vasili İvan və Qazaryan Erik Robert 2548 epizod üzrə Ermənistan Respublikası silahlı qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunurlar.

Yanvarın 17-də Ruben Vardanyan barəsində cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçiriləcək.

Azərbaycanın ədalət məhkəmələri bu məsələni tezliklə tam həll edəcəklər. Cinayətkar cəzasız qala bilməz.

Sülh müqaviləsinə gəldikdə isə dövlətimizin başçısı çox konkret və aydın şəkildə məsələni belə qiymətləndirib: "Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək. Çünki bu şərtlərdə hər hansı bir fövqəladə məsələ yoxdur. Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi - bunlarsız sülh müqaviləsi mümkün deyil. Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Beynəlxalq ictimaiyyət qərbi azərbaycanlıların öz yurdlarına qayıdış konsepsiyasını dəstəkləyir

**Azərbaycan Prezidentinin beynəlxalq hüququn prinsiplərinə əsaslanan müraciətləri, yüksək tribunalardakı obyektiv çıxışları, xalqların hüquq və azadlığına dair tövsiyələri, tələbləri dünyanın tərəqqipərvər insanları tərəfindən rəğbətlə qarşılanır.**

Bu baxımdan Prezident İlham Əliyevin 2024-cü il 5-6 dekabr tarixlərində Bakı şəhərində "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciəti və konfransın yekun sənədi Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi tərəfindən BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının rəsmi sənədləri kimi yayılıb.

Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıdış məsələsini həmişə diqqətdə saxlayan Prezident İlham Əliyev hələ 2011-ci il iyulun 5-də keçirilən Dünya Azərbaycanlılarının III Qurultayında demişdir: "Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqeyimizi müdafiə edir..."

Prezident İlham Əliyevin qurultaydakı çıxışı ilə bu mövzu bir daha siyasi gündəliyə gətirildi. Dövlətimizin başçısının tapşırığına əsasən, elə həmin illərdə Qərbi Azərbaycana qayıdış məsələsi ilə bağlı ideoloji xəttin formalaşmasına, məsələnin elmi əsasları üzərində iş aparılmasına başlanıldı. Cənab İlham Əliyevin tövsiyəsi ilə o vaxt Azərbaycan alimləri elmi əsərlər ərsəyə gətirməyə başladılar. İrəvan xanlığı haqqında tədqiqatlar aparılıb, elmi əsərlər yazılıb. Qərbi azərbaycanlıların keçmişdəki yaşayışı, doğma torpaqlarında məskunlaşmaları araşdırıldı, tarixi xəritələr çap etdirildi. Amma bunlar hələ nəzəri fəaliyyətlər idi. Daha geniş və ciddi şəkildə praktik işlərin görülməsinə isə son illərdə start verilib. İlk növbədə, ölkəmizdə fəaliyyət göstərən, Qərbi Azərbaycandan olan bir neçə ictimai qurum vahid təşkilat çərçivəsində birləşdi. Qərbi Azərbaycan İcmasının fəaliyyəti son illər daha da təkmilləşdi.

Məmnunluq doğuran odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2024-cü il 5-6 dekabr tarixlərində Bakı şəhərində "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan mövzusunun beynəlxalq gündəlikdə profilinin artması baxımından xüsusi əhəmiyyət kəsb edir. Xatırladaq ki, sözügedən sənədlərin, habelə bu istiqamətdə icmanın təşəbbüsü ilə indiyədək 10 yaxın bəyanatı və müraciəti BMT-nin rəsmi sənədi kimi yayılıb. Birmənalı şəkildə demək olar ki, bu məsələ artıq həm beynəlxalq leksikona, həm də beynəlxalq gündəliyə salınıb. Bundan əlavə, 2024-cü il sentyabrın 1-də keçirilmiş növbədənkənar seçkilər əsasında formalaşmış Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılmış və fəaliyyət göstərir.

Xatırladaq ki, Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlarından böyük əziyyət çəkmişdir. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatmışdır. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayırlar.

Sovet dönəmində erməni daşnakları məqsədli şəkildə yazdıqları, yaydıqları kitab, qəzet və jurnallarda mədəniyyətimizin, zəngin irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya ermənilərə mənsub olduğunu iddia etməyə çalışıblar. Eyni zamanda ermənilər tərəfindən azərbaycanlıların mənfi obrazının formalaşdırılması cəhdləri də unudulmayıb.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il martın 26-da imzaladığı fərmanında da bildirildiyi kimi, azərbaycanlılara qarşı soyqırımı əsrlər ərzində aparılıb və əsas məqsədi tarixi Azərbaycan ərazilərini ələ keçirmək olub.

Görünən odur ki, xalqımıza qarşı soyqırımı etnik nifrət aşılayan irqçi ideologiya zəminində sistemli şəkildə həyata keçirilib və tarixi Azərbaycan torpaqlarının demək olar ki, bütün hissələrində törədilib. 1905-ci ildən intensivləşməyə və açıq forma almağa başlamış bu soyqırımı Azərbaycanın qərb hissəsində xüsusilə amansız olub. Ermənistan ordusu 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törədib və etnik təmizləmə həyata keçirib.

Yüz minlərlə azərbaycanlının öldürüldüyü soyqırımı aktları nəticəsində İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş soydaşlarımız artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq kimi görünməyə başlamışdır. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulublar. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb.

Yeni ilin ilk günləri üzə çıxan, qəzetlərdə və televiziya verilişlərində gündəm olan Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın çıxışında: "Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 il həll edə bilmədiyi problemi həll etdi. Ermənistan və Artsax tamamilə əcnəbilərdən təmizləndi. Yenə deyirəm, bu, 600 illik problem idi və onun əhəmiyyətini erməni xalqı hələ 600 il də bundan sonra hiss edəcək. Təsəvvür edin, bu gün Ermənistanda 180 min əcnəbi olsaydı, bu gün bizim dövlətimiz olmazdı. Zəngəzuru qoruya, şimal-şərq rayonlarımızı qoruya, Sevan sahilini qoruya bilməzdik, burada bir neçə yeni muxtariyyətimiz olacaqdı. Yada salaq ki, azərbaycanlılar üç bölgədə çoxluq təşkil edirdi: Vardenis, Masis, Amasiya - bütün Zəngəzur zonasında onların sayı çox idi. Bu problem həll olundu" deməsi sözügedən cinayətlərə görə Ermənistanın dövlət kimi məsuliyyətini və bu cinayətlərin sistemli olaraq mütəşəkkil şəkildə törədilməsini sübut edir.

Ermənistan irqçi siyasətini günü bu gün də həyasızcasına davam etdirir. Bu isə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur.

Azərbaycan Prezidenti yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı bu məsələ ilə bağlı da aydın mesajlarını verdi. Bildirdi ki, bu gün biz 300 min qərbi azərbaycanlının o bölgələrə qayıtmalı olduğunu deyirik. Amma bütövlükdə o bölgədən çıxmış və bu gün Azərbaycanın müxtəlif bölgələrində yaşayanların və onların nəvələrinin, nəticələrinin sayı 300 mindən bir neçə dəfə çoxdur: "...Ona görə vaxt gəlib ki, Ermənistan şərait yaratsın, qərbi azərbaycanlılar öz dədə-baba yurdlarına qayıda bilsinlər. Əlbəttə ki, biz bu məsələdə Ermənistan rəhbərliyindən çox dəqiq və beynəlxalq hüquqa uyğun mövqe gözləyirik. Onlar hələ ki, susmağa üstünlük verirlər. Halbuki biz bu məsələni dəfələrlə dilə gətirmişik və onlardan konkret cavab gözləyirik. Nə vaxt, hansı şərtlərlə azərbaycanlılar o bölgələrə qayıda bilərlər? Xüsusilə nəzərə alsaq ki, azərbaycanlıların yaşadıqları kəndlərin böyük əksəriyyəti indi tamamilə boş qalıb, orada heç kim yaşamır, ora qayıtmaq o qədər də böyük problem olmaz, yəni ki, kimisə oradan köçürtmək lazım olmayacaq. Sadəcə olaraq, təhlükəsizlik zəmanəti verilməlidir. Onların orada yaşama hüququ tanınmalıdır və əlbəttə ki, onların fəaliyyəti üçün şərait yaradılmalıdır. Yəni bizim tələbimiz bundan ibarətdir və mən ümid edirəm, gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar".

Azərbaycan Prezidentinin qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışla bağlı tövsiyə və tapşırıqlarını əsas istiqamət prinsiplərinə çevirən Qərbi Azərbaycan İcması yanvarın 9-da Ermənistanın baş naziri Nikol Paşinyana ünvanlandığı bəyanatında onu dialoqa dəvət edərək bir daha xatırladır: "Qərbi Azərbaycan məsələsi ərazi deyil, insan hüquqları məsələsidir. Biz Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyimizi dəfələrlə ifadə etmişik. Qərbi Azərbaycan terminінə gəldikdə vurğulayaq ki, bu, tarixi həqiqətlərə əsaslanan və bizim özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdiyimiz anlayışdır".

Bəyanatda daha sonra qeyd olunur ki, qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və insan hüquqlarından irəli gələn öhdəliyidir. Ermənistan Respublikası Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərinin xarakterindən asılı olmayaraq, qərbi azərbaycanlıların - indi Ermənistan adlanan ölkənin qanuni sakinlərinin qayıdışına qeyd-şərtsiz şərait yaratmalıdır. Qayıdışa dair dialoqun süni şəkildə sülhdən sonraya saxlanması və yaxud qayıdışı dövlətlərarası dialoqla şərtləndirmək insan hüquqlarına ziddir və sülhün əldə edilməsinə xidmət etmir. Əslində, bu mövzuda əsas dialoq xətti Ermənistan hökuməti ilə Qərbi Azərbaycan İcması arasında aparılmalı olan formatdır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

## Revanşist keşiş sülhə qarşı çıxır

### Ermənistanda Paşinyanı devirmək üçün yenidən hərəkətə keçiblər

**Revanşist qüvvələrin, habelə xarici dairələrin ssenarisi əsasında təşkil olunan etiraz aksiyalarının "lideri" rolunu oynayan, mayın 9-da Tavuşdan İrəvana yürüş keçirən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan növbəti dəfə Nikol Paşinyanı devirməklə hədələyib. Keşiş növbəti addımlarının Ermənistanda hakimiyyət dəyişikliyinə yol açacağını iddia edib. O, yalnız dini lider kimi deyil, həm də getdikcə müxalifət düşərgəsində siyasi oyunçu kimi tanınır.**



Bu fonda Qalstanyan özünü Ermənistanın gələcək lideri kimi görür və Paşinyanı baş nazir postunda əvəz etməyi hədəfləyib. Onun ritorikası "ənənəvi erməni dəyərlərinin" bərpasına və Ermənistanın hərbi güc kimi yenidən dirçəlməsinə yönəlib.

Arxiyepiskop artıq mübarizənin yeni mərhələsinə başladıqlarını bildirib. "Müqəddəs hərəkat" adlanan təşkilatın lideri bu barədə fikirlərini "Feysbuk" vasitəsilə canlı yayımda etdiyi müraciətində açıqlayıb. Keşiş deyib: "Biz küçələrdə, meydanlarda, şəhərlərin qapıları önündə, divarlarda, bir sözlə, hər yerdə olacağıq. Ədalətin təntənəsini istəyən günahsızlar (?) geri çəkilməyəcəklər".

Ermənistanın rəsmi şəxslərinin Azərbaycanla apardıqları sülh danışıqlarına münasibət bildirən arxiyepiskop revanşist mövqeyini bu formada ifadə edib: "Bizə "yedirdilən", sırınan "sülh" mənəvi iflicdir. Sülh dağıdıcılığı nəzərdə tutmur. Sülh bataqlıqda boğulmaq demək deyil. Bəli, sülhün alternativi yoxdur, amma sülh qalib gəlməlidir. Qələbə yoxdursa, sülh də ola bilməz. Bizim hərəkatımız birbaşa həyatımızın xilas edilməsinə, həqiqətin təsdiqini tapmasına, qələbənin yekun nəticəsinə (?) aparacaq. Bizi bu yoldan heç nə döndərə bilməz".

Bu arada Baqrat Qalstanyanla Qarabağdan Ermənistana könüllü köçmüş şəxslərin ötəngünkü qapalı görüşü gərginliklərlə yadda qalıb. "4rd.am" nəşri yazıb ki, yepiskop hər kəsi dinləyib, problemləri qeyd edib, Qarabağ məsələsini və onların geri qaytarılması məsələsini beynəlxalq platformalarda qaldırmağı diqqətində saxladığını, "Qarabağ komitəsi"nin və Vardan Oskanyanın fəaliyyətindən xəbərdar olduğunu, onu alqışladığını və bunun dövlət səviyyəsində görülməli olduğunu vurğulayıb: ""Qarabağ parlamenti"nin (ləğv edilmiş qondarma qurum-red.) "deputatları" (separatçılar-red.) çıxış edərək, hərəkatı alqışlayıblar. "Parlamentin sədr müavini" Bağunts Baqrat Srbazanı ad günü münasibətilə təntənəli şəkildə təbrik edib. Görüşdə yalnız Samvel Şahramanyan iştirak etməyib, çünki Baqrat "keçmiş prezidentlər"in formatında görüşün təşəbbüskarıdır".

Ermənistanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyini almağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyi üzündən bütün səyləri nəticəsiz qalmışdır.

Paşinyan hökumətinin kilsə başçısına qarşı mübarizəsi Qaraginin mühafizəçilərinin dövlətdən maliyyələşdirilməsini dayandırmaqla başlayıb. Bundan sonra proses kilsənin fırıldaqla məşğul olması, dələduzluğu, 12 milyon dollar məbləğində ianənin mənimsənilməsi, Qaraginin hökumətə qarşı çıxışları ilə davam edib.

Xatırladaq ki, Ermənistanda kilsə ilə hökumət münasibətləri 44 günlük müharibədən sonra daha da kəskinləşib. Onda Qaragin Nikol Paşinyanın istefasını tələb etmişdi. O, kilsə ilə hökumət arasında əməkdaşlığın yetərli olmadığını da vurğulamışdı.

Son günlərdə İrəvanda xalqı Paşinyana qarşı qaldırmağa çalışan, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alanlardan biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Ermənistanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporunun siyasətdəki ən ciddi fiqurlarından biridir. Baqratyan sülh prosesinə və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqedə dayanır.

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 15 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" (bundan sonra - AZCON) idarəetməsinə verilmiş dövlət müəssisələrinin, dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin (bundan sonra - dövlət müəssisələri) vahid prinsiplərə uyğun idarə olunması, işinin təkmilləşdirilməsi, rəqabət qabiliyyətinin və maliyyə dayanıqlılığının yaxşılaşdırılması sahəsində (bundan sonra - müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir. AZCON Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, dövlət müəssisələrinin yeganə iştirakçısıdır (payçısıdır, səhmdarıdır) və dövlət adından çıxış edir.

1.2. AZCON öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını rəhbər tutur.

1.3. AZCON öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. AZCON ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. AZCON bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

1.5. AZCON-un müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi) vardır.

1.6. AZCON-un əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. O, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. AZCON-un rəsmi adı aşağıdakı kimidir:

1.7.1. tam halda - Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi, qısaldılmış halda - AZCON;

1.7.2. ingilis dilində tam halda - Azerbaijan-Transport and CommunicationsHolding, qısaldılmış halda - AZCON.

1.8. AZCON Bakı şəhərində yerləşir.

### 2. AZCON-un fəaliyyət istiqamətləri

2.1. AZCON-un fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, həmin siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.3. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.4. dövlət müəssisələrində korporativ idarəetməni təşkil etmək;

2.1.5. dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq;

2.1.6. AZCON-un strateji məqsədlərinə nail olmaq üçün dövlət müəssisələri arasında maliyyə, insan və əməliyyat resurslarının səmərəli idarə olunması üçün tədbirlər görmək;

2.1.7. dövlət müəssisələrinin fəaliyyət göstərdiyi xidmət bazarlarına investisiyaları cəlb etmək, ölkə iqtisadiyyatının inkişafı ilə bağlı müvafiq dövlət proqramlarına və digər normativ hüquqi aktlara uyğun olaraq tədbirlər görmək, dövlət proqramlarının həyata keçirilməsində iştirak etmək, habelə milli və ya beynəlxalq səviyyədə sahəvi və ya sahələrarası investisiya fəaliyyətini həyata keçirmək;

2.1.8. dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyini qiymətləndirmək;

2.1.9. dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması və maliyyə şəffaflığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

2.1.10. dövlət müəssisələrinin gəlirliliyini, bazar dəyərini və rəqabət qabiliyyətini artırmaq;

2.1.11. dövlət müəssisələrində innovasiya proseslərinin və müasir texnologiyaların tətbiqini sürətləndirmək;

2.1.12. dövlət müəssisələrinin fəaliyyətini əlaqələndirmək və davamlı inkişafını təşviq etmək;

2.1.13. dövlət müəssisələrinin infrastrukturunu müasirləşdirmək və inkişaf etdirmək;

2.1.14. dövlət müəssisələrində məlumat əsaslı qərar qəbulu sistemini formalaşdırmaq;

2.1.15. nəqliyyatın idarəedilməsi sistemində "ağıllı" texnologiyaları tətbiq etmək, ictimai nəqliyyat xidmətlərini optimallaşdırmaq və keyfiyyətini artırmaq;

2.1.16. ekoloji təmiz nəqliyyat vasitələrindən istifadəni təşviq etmək;

2.1.17. kosmik tədqiqatları, peyk xidmətlərini və milli kosmik proqramları inkişaf etdirmək, kosmik texnologiyaları genişləndirmək;

2.1.18. xarici nəqliyyat və kommunikasiya şəbəkələrinə inteqrasiyanı dəstəkləmək;

2.1.19. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. AZCON-un vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, AZCON-un vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. dövlət müəssisələrinin səhmlərini (paylarını) idarə etmək, habelə dövlət müəssisələrinin balansında olan əmlak və onların nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) üzərində bu Nizamnamənin 3.1.32-ci yarımbəndi nəzərə alınmaqla sərəncam, sahiblik və istifadə hüquqlarını həyata keçirmək;

3.1.3. dövlət müəssisələri arasında mövcud resurslardan səmərəli istifadəni, innovasiyaların tətbiqini və rəqabət üstünlüyünü təmin edərək sahələrarası inteqrasiyanı təkmilləşdirmək;

3.1.4. dövlət müəssisələrinin fəaliyyət göstərdiyi sahələrə investisiyaların, o cümlədən xarici investisiyaların cəlbinin stimullaşdırılması ilə bağlı tədbirlər görmək, investisiya fəaliyyətini (investisiya təşəbbüslərinin irəli sürülməsi də daxil olmaqla) həyata keçirmək və investisiyaları səmərəli idarə etmək;

3.1.5. dövlət müəssisələrinin inkişaf və biznes planlarını təsdiq etmək və onların monitorinqini aparmaq;

3.1.6. milli və müvafiq sahə (sektor) üzrə prioritetlərə uyğun olaraq, milli iqtisadiyyatın və müvafiq sahənin (sektorun) inkişafına töhfə vermək;

3.1.7. dövlət müəssisələrinin fəaliyyətini, habelə iqtisadi və maliyyə vəziyyətini təhlil etmək, onların fəaliyyətinin əlaqələndirilməsi və təkmilləşdirilməsi, iqtisadi səmərəliliyinin yüksəldilməsi, o cümlədən maliyyə vəziyyətinin yaxşılaşdırılması və gəlirlərinin artırılması üçün tədbirlər görmək;

3.1.8. dövlət müəssisələrinin fəaliyyət göstərdiyi sahələrdə xidmətlərin keyfiyyətinin artırılması ilə bağlı tədbirlər görmək;

3.1.9. dövlət müəssisələri arasında əməkdaşlığı, innovasiyaları, habelə bilik və resursların səmərəli yayılmasını təşviq etmək üçün mərkəzlər və təcrübə mübadiləsi mexanizmləri yaratmaq və onların maliyyələşdirilməsini təmin etmək;

3.1.10. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, dövlət müəssisələri adından əqdlər bağlamaq, əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək;

3.1.11. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, dövlət müəssisələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həll etmək;

3.1.12. dövlət müəssisələrinin restrukturizasiyası ilə bağlı tədbirlər görmək;

3.1.13. dövlət müəssisələrinin hesabatlarına dair tələbləri müəyyənləşdirmək, həmin hesabatların monitorinqini aparmaq və onları təsdiq etmək;

3.1.14. dövlət müəssisələrinin idarə olunmasına dair korporativ idarəetmə standartlarını təsdiq etmək və onların fəaliyyətinin həmin standartlara uyğun təşkilinə nəzarət etmək;

3.1.15. dövlət müəssisələrində əsas səmərəlilik göstəricilərini müəyyən etmək və onların icra vəziyyətinə nəzarət etmək, habelə həmin göstəricilərin təhlil və monitorinqinin nəticələri əsasında dövlət müəssisələrinin fəaliyyətini qiymətləndirmək;

3.1.16. AZCON-un və dövlət müəssisələrinin büdcə proqnozlarını, gəlir və xərclər smetalarını təsdiq etmək və onların icrasının monitorinqini aparmaq;

3.1.17. dövlət müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi əsasında mükafatlandırma siyasətinin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.18. dövlət müəssisələrinin xərclərinin optimallaşdırılması məqsədilə onlardan zəruri məlumatları və hesabatları tələb etmək, bu məlumatları və hesabatları təhlil edərək, onların idarəetmə orqanlarına müvafiq göstərişlər vermək;

3.1.19. dövlət müəssisələrində rəqəmsal inkişaf prosesinə nəzarət etmək;

3.1.20. dövlət müəssisələrinin idarəetmə orqanlarının və onların tərkibinin formalaşdırılması üçün tədbirlər görmək;

3.1.21. dövlət müəssisələrinin idarəetmə orqanlarının fəaliyyətini təhlil etmək;

3.1.22. dövlət müəssisələrinin maliyyə resurslarına əlverişli çıxış imkanlarının yaradılması ilə bağlı kompleks tədbirlər görmək;

3.1.23. dövlət müəssisələrinin rəqabət qabiliyyətini artırmaq, onların rəqabət qabiliyyətinə və ixrac potensialına təsir edən amilləri araşdırmaq;

3.1.24. dövlət müəssisələrinin beynəlxalq bazarlarda inkişaf potensialını təhlil etmək və xarici bazarlara çıxış imkanlarının artırılması məqsədilə tədbirlər görmək;

3.1.25. AZCON-un adından Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda aktivlərin alınmasını, idarə olunmasını, habelə daxili və xarici borclanmanı həyata keçirmək, eləcə də dövlət müəssisələrinin müraciəti əsasında onların özləri tərəfindən belə fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

3.1.26. AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini və onların fəaliyyəti barədə məlumatları özündə əks etdirən vahid informasiya sistemini yaratmaq;

3.1.27. AZCON-un və dövlət müəssisələrinin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;

3.1.28. dövlət müəssisələrinin əmlakından təyinatı üzrə səmərəli istifadəyə nəzarət etmək, dövlət müəssisələrinin müraciəti əsasında onların öz və törəmə müəssisələrinin əmlakının balansdan-balansa (o cümlədən əvəzsiz olaraq) verilməsinə, qiymətləndirilməsinə, habelə onlar tərəfindən həmin əmlakın təyinatının dəyişdirilməsinə, istifadəyə və ya icarəyə verilməsinə, Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla girov (ipoteka) qoyulmasına, satılmasına, AZCON-un və dövlət müəssisələrinin iştirak etdiyi layihələrə pay şəklində qoyulmasına, silinməsinə (ləğv edilməsinə) razılıq vermək;

3.1.29. AZCON tərəfindən hüquqi şəxslərin (o cümlədən onların filial və nümayəndəliklərinin) yaradılmasına, yenidən təşkilinə və ləğv olunmasına dair qərar qəbul etmək, eləcə də dövlət müəssisələrinin müraciəti əsasında onların özləri tərəfindən belə fəaliyyətin həyata keçirilməsinə və hüquqi şəxslər yaradıldıqda onların əmlakının pay şəklində qoyulmasına razılıq vermək;

3.1.30. AZCON-un və dövlət müəssisələrinin istifadəsi üçün ayrılmış dövlət torpaqlarından təyinatı üzrə istifadəyə nəzarət etmək, bu torpaqlardan istifadə hüquqlarının dövlət müəssisələri arasında ötürülməsinə və həmin torpaqların mülkiyyətçiyə geri qaytarılmasına torpaq qanunvericiliyinə uyğun olaraq razılıq vermək;

3.1.31. kontragentlərdən təhvil alınmış aktivləri əvəzsiz olaraq dövlət müəssisələrinin balansına ötürmək;

3.1.32. dövlət müəssisələrinin və səhmləri (payları) AZCON-a məxsus olan birgə müəssisələrin təsis sənədlərində dəyişikliklər edilməsi, AZCON-un payının azaldılması, artırılması və özgəninkiləşdirilməsi barədə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla qərar qəbul etmək;

3.1.33. dövlət müəssisələrində xarici iqtisadi əlaqələrə aid bütün məsələlərin mərkəzləşdirilmiş qaydada təşkili və həlli barədə qərar qəbul etmək;

3.1.34. AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinin maliyyələşdirilməsi və inkişaf etdirilməsi məqsədilə dövlət müəssisələri tərəfindən qiymətli kağızlar, o cümlədən istiqrazlar buraxılması barədə qərar qəbul etmək;

3.1.35. dövlət müəssisələrinin (publik hüquqi şəxslər istisna olmaqla) iflas (müflisləşmə) proseslərinin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.36. dövlət müəssisələri tərəfindən Azərbaycan Respublikasının adından alınan borc hesabına maliyyələşdirilməsi təklif edilən layihələrin (o cümlədən icrada olan layihə üçün əlavə maliyyələşdirmənin) və kreditlərin zəmanətlə alınması barədə müraciətlərin zəruriliyini, prioritetliyini, maliyyə dayanıqlığını, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına təsirini qiymətləndirmək;

3.1.37. dövlət müəssisələrinin fəaliyyətindən əldə olunmuş vəsait üzərində sərəncam vermək;

3.1.38. AZCON-a, habelə dövlət müəssisələrinə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.39. AZCON-un mərkəzləşdirilmiş fondlarını yaratmaq, "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin yaradılması və bununla əlaqədar bəzi məsələlərin həll edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanının 4.1-ci bəndinə əsasən dövlət müəssisələrinin AZCON-a ödədikləri vəsaiti həmin mərkəzləşdirilmiş fondlarda cəmləşdirmək və bu vəsait üzərində sərəncam vermək;

3.1.40. dövlət müəssisələrində insan resurslarının idarə olunması ilə bağlı siyasət və qaydaları müəyyən etmək;

3.1.41. AZCON və dövlət müəssisələri tərəfindən məhsulların (mal, iş və xidmətlərin) satınalınması qaydalarını "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən etmək və həmin qaydaların icrasına nəzarət etmək;

3.1.42. AZCON və dövlət müəssisələri tərəfindən həyata keçirilən layihələrin, o cümlədən birgə layihələrin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi olmaq, layihələri idarə etmək və bu sahədə nəzarəti həyata keçirmək;

3.1.43. dövlət müəssisələrində maliyyə, əməliyyat və daxili nəzarət proseslərinin qiymətləndirilməsi məqsədilə müntəzəm audit yoxlamalarını həyata keçirmək və aşkar edilən nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görmək;

3.1.44. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.45. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.46. AZCON-un strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.47. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.48. AZCON-un informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.49. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.50. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, AZCON-un əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.51. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.52. müvafiq sahədə peşəkar mütəxəssislər hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.53. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn və AZCON-un səlahiyyətinə aid olan məsələlərlə bağlı Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.54. bu Nizamnamə ilə və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün AZCON-un aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi barədə aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.3. əməkdaşlarını dövlət təltiflərinə və mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.4. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.5. müqavilə əsasında müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.6. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.7. dövlət orqanlarına, qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.8. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində dövlət müəssisələrinə icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.9. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.12. dövlət müəssisələrinə ödənişli və ödənişsiz xidmətlər təqdim etmək;

3.2.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.14. bu Nizamnamə və Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. AZCON-un idarə olunması

4.1. AZCON öz fəaliyyətində mütərəqqi korporativ idarəetmə prinsiplərini tətbiq edir.

4.2. AZCON-un idarəetmə orqanları Müşahidə Şurası və icraçı direktordur.

4.3. AZCON-un Müşahidə Şurası (bundan sonra - Şura) AZCON-a ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədrdə daxil olmaqla 7 (yeddi) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. AZCON-un və dövlət müəssisələrinin inkişaf istiqamətlərini, strateji məqsəd və planlarını, habelə dövlət müəssisələrinə münasibətdə dividend siyasətini müəyyən etmək;

4.7.2. AZCON-un mənfəətinin və zərərinin bölgüsünü, fəaliyyətinə dair illik hesabatı və illik maliyyə hesabatını,investisiya layihələrini və onların icrasına dair hesabatları təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.3. normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadığı halda, AZCON-unvə dövlət müəssisələrinin hesabatlarının formasını təsdiq etmək və təqdim edilməsi müddətlərini müəyyənləşdirmək;

4.7.4. AZCON-un maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.5. AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinə nəzarət etmək;

4.7.6. icraçı direktorun və onun müavinlərinin fəaliyyətinə nəzarət etmək, onların fəaliyyətini yoxlamaq, habelə təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq onların fəaliyyətini qiymətləndirmək;

4.7.7. Şura üzvlərinin və icraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.8. AZCON-un və dövlət müəssisələrinin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.9. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.10. AZCON-un və dövlət müəssisələrinin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri AZCON-un və dövlət müəssisələrinin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.11. AZCON-un və dövlət müəssisələrinin idarə, filial və nümayəndəliklərini, habelə törəmə təsərrüfat cəmiyyətlərini yaratmaq, onların idarəetmə orqanlarının üzvlərini (rəhbərlərini) vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.12. AZCON-un və dövlət müəssisələrinin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə AZCON-un idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.13. AZCON-un, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsərrüfat cəmiyyətlərinin strukturunu, işçilərinin say həddini və əməkhaqqı fondunu təsdiq etmək, dövlət müəssisələri tərəfindən həmin fəaliyyətin həyata keçirilməsinə razılıq vermək;

4.7.14. dövlət müəssisələrinin müşahidə şuralarının üzvlərini, o cümlədən onların rəhbərlərini (icra orqanının rəhbərini Azərbaycan Respublikası Prezidentinin təyin etdiyi qurumlara münasibətdə isə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla) vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.15. dövlət müəssisələrinin Müşahidə Şurası üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi sistemini təsdiq etmək;

4.7.16. icraçı direktorun vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə təqdimat vermək, eləcə də icraçı direktorun müavinlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.17. AZCON tərəfindən bəzi fəaliyyət növlərinin həyata keçirilməsinin tam və ya qismən dövlət müəssisələrinə həvalə edilməsi barədə qərar qəbul etmək;

4.7.18. Şura sədrinin və icraçı direktorun səlahiyyətlərinə aid olmayan, bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri həyata keçirmək.

4.8. Şuranın sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şura iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya icraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında qərarlar hər üzvün bir səsi olmaqla açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın iclasları onun üzvlərinin bilavasitə iştirakı ilə əyani, informasiya texnologiyalarından istifadə etməklə distant, yaxud qarışıq formalarda keçirilə bilər.

4.10. Şura üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.11. Şuranın iclasında icraçı direktor iştirak edə bilər.

4.12. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir.

4.13. Gündəliyə daxil edilməmiş və ya tələb olunan bütün aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılığı olduğu hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.14. Şuranın iclasının nəticəsi Şura üzvlərinin və katibinin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Protokolda iclasın yeri, vaxtı, keçirilmə forması, iştirak etmiş üzvlər barədə məlumat, iclasın gündəliyi, üzvlərin gündəliyə daxil edilmiş məsələlərə dair çıxışlarının xülasəsi, səsvermənin nəticələri və qəbul edilmiş qərarlar əks olunur. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Şura protokolu təsdiq edərək icraçı direktora göndərir.

4.15. Şuranın katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir və Şuranın katibi Şuranın sədrinə hesabat verir.

4.16. Şuranın katibi:

4.16.1. Şuranın iclaslarını təşkil edir;

4.16.2. bu Nizamnamənin 4.10-cu bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

4.16.3. Şura iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

4.16.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şura sədrinə təqdim edir;

4.16.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.17. Şuranın sədri:

4.17.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, özünün və icraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.17.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.17.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya icraçı direktorun müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.17.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.18. Şura üzvləri:

4.18.1. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.2. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılma barədə təklif verirlər;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın qərarları və iclas protokolları ilə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. AZCON-un fəaliyyətinə cari rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən icraçı direktor həyata keçirir. İcraçı direktorun dörd müavini vardır. İcraçı direktorun müavinlərini Şura vəzifəyə təyin və vəzifədən azad edir. İcraçı direktorun müavinləri icraçı direktor tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini icraçı direktorun müavinləri arasından Şura sədrinin müəyyən etdiyi şəxs icra edir.

4.22. İcraçı direktor:

4.22.1. AZCON-u təmsil edir;

4.22.2. Şuranın qərarlarını icra edir;

4.22.3. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

4.22.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində AZCON-un Aparatının, digər struktur bölmələrinin, habelə təsərrüfat cəmiyyətlərinin strukturunu və ştat cədvəlini Şura ilə razılaşdırmaqla təsdiq edir;

4.22.5. AZCON-un işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini Şura ilə razılaşdırmaqla, əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.22.6. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla,AZCON-un, o cümlədən AZCON-un idarə, filial və nümayəndəliklərinin işçilərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Şura ilə razılaşdırmaqla qərarlar qəbul edir;

4.22.7. AZCON-un əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.22.8. bu Nizamnamənin 3.1.39-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.22.9. AZCON-un fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.22.10. AZCON-un fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.22.11. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində AZCON-un adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.22.12. özünün və AZCON-un struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.22.13. AZCON-un fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.22.14. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.22.15. AZCON-da kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.22.16. AZCON-da müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.22.17. aidiyyəti şəxslə dəyəri AZCON-un və dövlət müəssisələrinin aktivlərinin 5 faizinədək hissəsini təşkil edən əqdin bağlanması haqqında Şura ilə razılaşdırmaqla qərar qəbul edir;

4.22.18. AZCON-un strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.22.19. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görür;

4.22.20. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırır.

4.23. İcraçı direktor adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidir.

### 5. AZCON-un nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. AZCON-un nizamnamə fondu 10 000 000 (on milyon) manatdır.

5.2. AZCON-un əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, dövlət müəssisələrinin ödədiyi vəsaitdən, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. AZCON öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

5.4. AZCON qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra AZCON-un, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. AZCON-un mənfəəti Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. AZCON-un məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

5.7. Dövlət müəssisələrinin AZCON-a ödədikləri vəsaitdən AZCON-un bu Nizamnamədə nəzərdə tutulmuş səlahiyyətlərini həyata keçirmək üçün istifadə olunur.

### 6. AZCON-un fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. AZCON-un fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada AZCON-un idarəetmə orqanları həyata keçirirlər.

6.2. AZCON-un fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

### 7. AZCON-da uçot və hesabat

7.1. AZCON "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, maliyyə hesabatlarını, o cümlədən AZCON-un və dövlət müəssisələrinin birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. AZCON "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. AZCON və dövlət müəssisələrinin idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. AZCON özünün və dövlət müəssisələrinin fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

### 8. AZCON-un ləğvi və yenidən təşkili

AZCON-un ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

REGİONLAR

# 4 ay sonra 4 ölkəyə məhsul ixracı

## "BAFCO İnvest"in Ağdam Sənaye Parkında fəaliyyət göstərən ayaqqabı istehsalı müəssisəsi ixrac coğrafiyasını genişləndirmək niyyətindədir

**Bir neçə ay əvvəl Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində həmin rayondakı sənaye parkında yeni müəssisələrin açılışını etdi. Bunlardan biri "BAFCO İnvest" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) müxtəlif təyinatlı ayaqqabıların istehsalı zavodu idi. Bu günlərdə verilən məlumata görə, həmin zavod artıq məhsul ixracına başlayıb.**




İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Ağdam Sənaye Parkının rezident "BAFCO İnvest" müxtəlif çeşiddə qoruyucu ayaqqabı və poliuretan çəkmələrin istehsalı üzrə ixtisaslaşıb. MMC sözügedən sənaye parkında 2023-cü ilin mart ayında rezidenti kimi qeydiyyata alınıb. Sənaye parkının 2,5 hektar ərazisində Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikintidə istifadə üçün nəzərdə tutulan, dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı həyata keçirilir. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə ümumilikdə 120 nəfər işlə təmin ediləcək. İşçilərin Ağdamdan və ətraf rayonlardan cəlb edilməsi nəzərdə tutulur.

Zavod ildə 510 min cüt ayaqqabı istehsalı gücünə malikdir. Bunun da 350 min cütünü təhlükəsizlik ayaqqabıları, 160 min cütünü isə poliuretan çəkmələr təşkil edəcək. İstehsal olunan məhsulların 65 faizinin yerli, 35 faizinin isə xarici bazarlarda satışı planlaşdırılır.

"BAFCO İnvest" MMC sənaye parklarında tətbiq olunmuş idxal, ƏDV və gömrük güzəştləri nəticəsində bir milyon manatdan çox vəsaitə qənaət edib.

Budur, "BAFCO İnvest" MMC tərəfindən Rusiya, Qazaxıstan, Özbəkistan və Birləşmiş Ərəb Əmirliklərinə məhsul ixracına da başlanıb. Hazırda MMC Avropa ölkələrinə məhsul ixracı istiqamətində danışıqlar aparır.

Təkcə bu faktın özü, Ağdam Sənaye Parkında görülən işlər işğaldan azad olunmuş ərazilərimizin necə sürətlə bərpa edildiyindən, yurda dönən insanlar üçün yeni iş yerlərinin açılmasından, ölkəmizin sənayeləşmə sahəsindəki növbəti nailiyyətlərindən xəbər verir.

Xatırladaq ki, Ağdam Sənaye Parkı Prezident İlham Əliyevin 28 may 2021-ci il tarixli fərmanına əsasən yaradılıb. Sənaye parkı 190 hektar ərazini əhatə edir. Parkın yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının reallaşdırılması, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır.

Bölgənin coğrafi mövqeyi, insan resursları və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirəcək. Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

Qeyd edək ki, keçən ilin sentyabr ayında dövlətimizin başçısı burada "BAFCO İnvest"in zavodundan başqa, daha 5 müəssisənin açılışını edib. Bunlardan biri "Eel Electric" MMC-nin elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyalarının istehsalı zavodudur. "Eel Electric" tərəfindən Avropa və Türkiyənin qabaqcıl texnologiyasının tətbiqi ilə 35 kV, 10 Kv və 0,4 kV-luq elektrik paylayıcı qurğularının istehsalı üzrə müəssisə fəaliyyət göstərəcək.

Rezidentlərdən biri də "Rail Trans Service" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomatlaşdırma və telemexanika sistemlərinin istehsalı zavodudur. "Mister Decor" MMC-nin yeni zavodu isə Cənubi Qafqazda divar kağızlarının istehsalı üzrə ixtisaslaşmış ilk zavoddur və adından da göründüyü kimi, parkın 1,6 hektar ərazisində divar kağızlarının istehsalını həyata keçirəcək. Prezident Ağdam Sənaye Parkında həmçinin "Metkons" MMC-nin havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı zavodunun açılışında iştirak edib. Dövlət başçısının iştirakı ilə, eləcə də parkın rezidenti "Prof-Dam" Məhdud Məsuliyyətli Cəmiyyətinin dam örtükləri istehsalı zavodunun açılışı olub. Bu layihə çərçivəsində dam və fasad örtülməsi üçün nəzərdə tutulmuş profilli təbəqələrin, metalkirəmit plitələrin, sendviç panellərin və müxtəlif dam örtüyü aksesuarlarının istehsalı təşkil edilib.

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Ümumiyyətlə, ölkənin sənaye zonalarında rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Belə ki, onlar dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Eləcə də qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları aiddir. Həmin müəssisələr ƏDV-dən tam azad olurlar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Naxçıvan MR-də keçən il 1,5 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub

**Ötən il Naxçıvan Muxtar Respublikasında ümumi daxili məhsul istehsalı 1 milyard 539 milyon 514 min 500 manat olub.**

Muxtar respublikanın Dövlət Statistika Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu göstərici 2023-cü illə müqayisədə 3,1 faiz çoxdur. Bu dövrdə əhalinin hər nəfərinə düşən ümumi daxili məhsul istehsalı 2,5 faiz artaraq 3277 manat olub.

## Biləsuvarlı pambıqçılar ötən ili yüksək nəticə ilə başa vurublar

**Ötən mövsüm əlverişsiz hava şəraiti səbəbilə Biləsuvarda pambıq yığımı xeyli geciksə də, tarlalardan rayon tarixində ən yüksək məhsuldarlıq əldə edilib. Belə ki, bu günədək tarlalardan 24 min 400 tona yaxın məhsul toplanaraq emal müəssisələrinə təhvil verilib.**

2024-cü ili uğurla başa vuran biləsuvarlı pambıqçılar 7 min hektardan çox sahədə yetişdirilən yüksəkkeyfiyyətli pambıq məhsulunu son qozasınadək toplayıblar. AZƏRTAC xəbər verir ki, ötən illərlə müqayisədə əkin hektarlarında azalma müşahidə olunsa da, müəssisələrin istehsalçılar arasında yaratdığı sağlam rəqabət mühiti yüksək məhsul istehsalına zəmin yaradıb. Toplanan məhsulun orta göstəricisi 34 sentnerdən artıq olmasına baxmayaraq, fərdi təsərrüfatlarda 50, hətta 60 sentner məhsuldarlıq əldə edən fermerlər var. Hər hektardan 50 sentnerdən çox məhsul toplayan fermerlərin sayı ilbəil artmaqdadır. Builki məhsuldarlıq da ürəkaçandır.



"Gübrəsini vermişəm, qulluq etmişəm, 62 sentner məhsul götürmüşəm. Məhsuldarlıq qulluq etməkdən asılıdır. Pambıq sahəsini gəzmək lazımdır. Qurda qarşı dərmanını vaxtı-vaxtında vermək lazımdır. Düşünürəm ki, gələcəkdə su problemi olmasa, Biləsuvarda 30-40 hektar sahədə pambıq əkim. İnşallah məhsuldarlıq 60-70 sentneri keçər", - deyə fermer Ramil Mirzəyev vurğulayıb.

Biləsuvar Dövlət Aqrar İnkişaf Mərkəzindən (DAİM) verilən məlumata görə, 2023-cü illə müqayisədə 2024-cü ildə 7 sentner çox olmaqla 24 min 333 ton və yaxud 35,18 sentner pambıq məhsulu toplanılıb. Pambığın hər kiloqramına görə 19 qəpik subsidiya ödənilir. Birinci növ pambığın alıcılığı hər tona görə 800 manat, ikinci növ 780 manat, üçüncü növ 740 manat, dördüncü növ isə 700 manata hesablanır.

"Sevindirici haldır ki, havaların əlverişsiz olmasına baxmayaraq, pambıq yığımı Biləsuvarda uğurla başa çatdırılıb. İkinci sevindirici hal odur ki, yığılan pambığın 92,6 faizi maşınla yığılıb və 1-ci növ kimi qəbul edilib. Bu da keçən illə müqayisədə 4 faiz çoxdur", - deyə Biləsuvar DAİM-in əməkdaşı Gülağa Qurbanov qeyd edib.

## Ötən il İlisu kəndindəki "Sumuq qala" abidəsini 3600-dən çox turist ziyarət edib

**Qax rayonunda orijinal xüsusiyyətlərə malik qədim tarixi-memarlıq abidələrindən biri də İlisu kəndinin ərazisində yerləşən "Sumuq qala"dır.**

İnşa tarixi XVIII əsrə aid edilən bu müdafiə qülləsi sümük kimi möhkəm olduğu üçün yerli əhali tərəfindən belə adlandırılır. Yerli ləhcədə "sümük" sözü "sumuq" kimi tələffüz olunur. Qala rayona gələn yerli və xarici turistlər üçün də böyük maraq doğurur.

İlisu Dövlət Tarix-Memarlıq Qoruğunun direktoru Azər Qocayev AZƏRTAC-a bildirib ki, 2024-cü ildə "Sumuq qala"nı 3600-dən çox yerli və xarici turist ziyarət edib. Əcnəbi turistlər arasında Rusiya və Türkiyə vətəndaşları üstünlük təşkil edib.

Direktorun məlumatına görə, hazırda qoruğun ərazisində mühafizəyə götürülən 50 tarixi-memarlıq və mədəniyyət abidəsi var. Bu abidələrdən 13-ü dövlət qeydiyyatına alınıb. Digər 37 abidənin də qeydiyyata alınması ilə bağlı müvafiq qurumlara müraciət olunub. Bu abidələrin bir qismi, o cümlədən "Sumuq qala", "Ulu körpü" və "Ulu məscid" İlisu sultanlığı dövründə inşa edilib. "Qalaça", "Bürc qala" və digərləri isə çar qoşunlarının sultanlığı işğal etdikdən sonra inşa edilmiş abidələrdir. Qoruğun ərazisində, həmçinin alban dövrünə aid abidələr də mövcuddur. "Cinli qala", Ağçay kəndindəki "Oğlan qala-qız qala", "Kilsə qalıqları" və digər abidələr daş yaddaşımızdır və bu diyarın qədimliyindən soraq verir.

Qeyd edək ki, "Sumuq qala"nın daxilində yerli əhalidən könüllü şəkildə toplanmış qədim əşyalar və sənətkarlıq nümunələri əsasında muzey də yaradılıb.

## Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi yolunda yeni piyada keçidinin inşası yekunlaşır

**Vətəndaşların avtomobil yollarını rahat və təhlükəsiz şəkildə keçməsini təmin etmək üçün daha bir yerüstü piyada keçidi inşa edilib.**

Yeni yerüstü piyada keçidi M2 Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 266,6-cı km-də tikilib.

Dəmir-beton və metal konstruksiyalı olan keçidin uzunluğu 46, eni 3,2, yol səviyyəsindən hündürlüyü isə 5,5 metrdir.

Hazırda keçidin ətrafında abadlaşdırılma işləri aparılır. Layihə çərçivəsində yolun hər iki tərəfində avtobus dayanacağının quraşdırılması nəzərdə tutulub.

Müasir texnologiyalar əsasında və keyfiyyətli materiallardan istifadə edilərək inşa edilən yerüstü piyada keçidi piyadaların avtomobil yolunu rahat və təhlükəsiz şəraitdə keçməsini təmin edəcək.

Tədbirlər Planı çərçivəsində növbəti illər zəruri olan digər ərazilərdə də piyada keçidləri tikiləcək.



# Bölgələrimiz getdikcə daha yaşamalı və işləməli olur

**Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş 4 dövlət proqramının icrası Azərbaycanın ümumi inkişafına da mühüm töhfə verdi. 20 il ərzində ölkə iqtisadiyyatında ÜDM istehsalının 3,4 dəfə artması isə həm də regionlarda görülən işlərin miqyasını göstərir.**



Həmin proqramların icrası ölkənin neft-qaz ixracından asılılığının azalmasında da önəmli rol oynadı. Bu günün özündə də qeyri-neft sektorunun inkişafında, məhsul istehsalında və ixracında regionlarda icra edilən sosial-iqtisadi islahatların rolu böyükdür. İndi bölgələrdə istehsal olunan bir çox məhsul ölkənin daxili tələbatını ödəməklə bərabər, xarici bazara da ixrac edilir.

Keçən il də qeyri-neft-qaz sektorunda ixracın dinamikası yüksək olub. Üstəlik, ötən ilin yanvar-noyabr aylarında bu sektor üzrə məhsul istehsalında 7,2 faiz artım qeydə alınıb. Bu artımda regionların payı az deyil. Belə ki, ixracda artıq neçə ildir meyvə-tərəvəz və digər kənd təsərrüfatı məhsullarının payı yüksəkdir. Bu fakt onu göstərir ki, ixracda regionlarda istehsal edilən məhsulların çəkisi dinamik artır. Artan həm də bölgələrdəki sənaye zonalarında istehsal edilən qeyri-aqrar məhsullardır.

Məlum olduğu kimi, müasir dünyada ərzaq təhlükəsizliyinin təminatına xüsusi diqqət verilir. Hətta o dərəcədə ki, bəzi hikkəli dövlətlər onu strateji karbohidrogen ehtiyatları kimi sanksiya predmetinə çeviriblər. Rusiya-Ukrayna müharibəsi başlayanda dünya bunun şahidi oldu. Nəticədə ərzaq təhlükəsizliyi elə bir qlobal xarakter alıb ki, hazırda BMT başda olmaqla, bir çox beynəlxalq təşkilat və maliyyə qurumu bununla bağlı müxtəlif layihələr üzərində işləyirlər. Məsələn, Dünya Bankı qida təhlükəsizliyini qlobal səviyyədə yanaşma tələb edən 8 problemdən biri hesab edir.

Azərbaycanda dövlət ərzaq təhlükəsizliyini təmin etmək üçün bir sıra kompleks tədbirlər həyata keçirib və bu proses indi də davam edir. Müstəqilliyimizin ilk illərində ölkəmizdə əkin sahələrinin boş qaldığını yaşı imkan verən hər kəs xatırlayır. Bunun bir çox səbəbi vardı. Başlıcası isə kəndlinin maliyyəsi, toxumu və kənd təsərrüfatı texnikasının olmaması idi. Pay torpağı alan kəndli bilmirdi ki, nə əksin, necə əksin. Belə çətin anda dövlət torpağı əkib-becərmək istəyənlərin köməyinə gəldi, kənd təsərrüfatı ilə məşğul olanlara güzəştlər tətbiq etdi. İlk növbədə aqrar sektorda çalışanlar torpaq vergisindən savayı bütün növ vergilərdən azad olundu. Söz düşmüşkən qeyd edək ki, həmin qərar indi də qüvvədədir. Bununla yanaşı, fermerlərə güzəştli kreditlər verildi, toxum, meyvə tingləri, bütün növ damazlıqlar kəndliyə güzəştli şərtlərlə satıldı. Bunlardan savayı, dövlət öz vəsaiti hesabına yeni texnika alıb ucuz qiymətə kəndliyə ya icarəyə verdi, ya da aşağı qiymətə uzunmüddətli kreditlə satdı. Görülən tədbirlər nəticəsiz qalmadı, aqrar sektorda məhsul istehsalı ilbəil artdı. Hazırda taxıldan savayı əsas kənd təsərrüfatı məhsulları ilə özümüzü yerli istehsal hesabına təmin edirik. Bir çox məhsul isə ixrac da olunur. Taxıla gəldikdə, bu gün ölkənin buğdaya olan tələbatının əsas hissəsini daxili istehsal hesabına təmin etmək üçün buğda əkən fermerlərə əlavə güzəştlər olunur. Hazırda isə işğaldan azad olunan ərazilərdə ilk növbədə taxılçılığın inkişafı üçün tədbirlər görülür. Paralel olaraq aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması stimullaşdırılır. Bu gün ölkədə çox sayda aqropark fəaliyyət göstərir. Həmin aqropark və iri fermer təsərrüfatlarında müasir texnologiyaların tətbiqi sayəsində məhsuldarlıq yüksəkdir. Məsələn, fərdi təsərrüfatlarda buğda üzrə məhsuldarlıq aşağı-yuxarı 30 sentner olduğu halda, aqropark və iri fermer təsərrüfatlarında bu rəqəm 60-80 sentner arasında dəyişir.

Regionların inkişafı istiqamətində görülən tədbirlər, icra edilən islahatlar sayəsində əhalinin rifahının yaxşılaşmasında da xeyli irəliləyişə nail olunub. Xüsusən bölgələrdə işsizliyin səviyyəsi aşağı düşüb. İndi regionda, o cümlədən rayon mərkəzlərində və şəhərlərdə yaşayanlar üçün iş tapmaq elə də çətin deyil. Çətin olan yüksək ödənişli iş yerləridir ki, bu problem də özəl sektor hesabına tədricən həll edilir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Mədəniyyət





**Teatrlarımız**

# İşıqlar şəhərində nur saçan sənət ocağı

**"İşıqlar şəhəri"ni sanki Tanrı özü nura boyamışdı. Gecə küknar ağaclarının üstünə düşən qırov gün düşdükcə mirvari dənələri kimi parıldayırdı. Ömürlərini günəşin "baxış"larına qurban verən buz dənəcikləri göz yaşı kimi suya dönüb ağacların dibinə süzülürdü.**






Şəhərdə adamın ruhunu oxşayan qəribə bir sakitlik var idi. Küçədə arabir şütüyən maşınların siqnal səsi olmasaydı, deyərdin ki, şəhər yatıb.

Yolu keçən yaşlı bir xanımdan Mingəçevir Dram Teatrının ünvanını soruşuruq. "Düz gəlmisiniz" deyib əli ilə qarşıdakı binanı göstərir. Teatrın girişində bizi qarşılayan gəncdən direktorun otağını soruşduqda "İntiqam müəllim məşqdədir", - cavabını aldıq.

Şəhərin sakit küçələrindən fərqli olaraq burada tamam səsli-küylü bir mənzərənin şahidi oluruq. Səsgücləndiricidən gələn ötkəmli səs zala yayılır:

- İşıqları, söndürün! Musiqi gəlsin... Santa, arxaya baxma, tamaşaçılarla göz təması qur. Sənin işin uşaqların diqqətini özünə çəkməkdir. Elə et ki, seyrçilər də hər şeyin qaydasında olmadığını, çəkmələrini axtardığını hiss etsinlər...

Bir anın içində səhnədə sanki "tufan" qopur. "Dəcəl pişiklərin səsi", aktyorların dinamik hərəkətləri, maraqlı rəqslər adamı öz sehrinə salır. İstər-istəməz qayğıları, problemləri unudub özünü başqa bir dünyada hiss edirsən.

Öyrənirik ki, teatrın kollektivi İntiqam Soltanın rejissorluğu ilə Arzu Soltanın "Santanın çəkmələri" pyesi əsasında uşaqlar üçün yeni tamaşaya hazırlaşır. Tamaşanın musiqi tərtibatçısı Gülcahan Yusifova, rəssamı Sevda Məmmədovadır. Burada əsasən gənc aktyorlar - Aynur Mustafayeva, Lalə Abuşova, Ruhəngiz Allahverdiyeva, Hüseyn Mustafayev, Turğut Məsimli, Amil Fərzəliyev, Asim Məmmədov, Ceyhun Əhmədov, Cavidan Abdullayev və Rəvan Adil rol alıblar.

Tamaşa pişiklərin Santanın içində yuva qurduqları üçün istifadəyə yaramayan çəkmələrindən və onun başına gələn duzlu-məzəli macəralardan bəhs edir. Teatrın direktoru respublikanın Əməkdar artisti İntiqam Soltan deyir ki, 2024-cü il kollektiv üçün uğurlu olub. Ətraf rayonlarda da tamaşalar göstəriblər.

- Bircə faktı qeyd edim ki, Mingəçevir Dram Teatrı təsərrüfat xərclərini özü çəkir. Bu heç də kiçik rəqəm deyil. Teatrımız yeni idarəetmə üsullarından istifadə edir. Bu da öz nəticəsini verməkdədir.

Sovet teatr idarəetmə ənənəsindən danışan sənət adamı deyir ki, o zaman sistemi elə qəlizləşdirilmiş formada qurmuşdular ki, teatr bataqlıqda boğulmamaq üçün bütün ömrü boyu mübarizə aparmalı idi. Bura yaradıcı müəssisədir. Yaradıcılıqla məşğul olmaq qalırdı bir kənarda, diqqət yönəlirdi tearın direktoru ilə baş rejissorun dartışmasına. Bildiyimiz kimi, teatrlarda direktor və baş rejissor institutu fəaliyyət göstərirdi. Baş rejissor bu müəssisədə əsas yaradıcı hissənin rəhbəridir. Aktyorlarla işləyən birnömrəli adamdır. Deməli, əslində, teatrın rəhbəri də elə baş rejissordur. Aktyorlar onun rəhbərliyi altında çalışırlar. Belə deyək ki, onun dediyi ilə oturub-dururlar. Teatrın inkişafı da baş rejissorun necə fəaliyyət göstərməsindən asılıdır.

Bəs onda direktor kimdir? Teatrların direktorları dövlətin möhrünü öz seyfində saxlayan məmurdur. Deməli, direktor əsasən yaradıcılıqdan kənarda dayanan məmur olur. Bu səbəbdən də baş rejissorla teatrın direktoru arasında mübarizə baş verirdi. Məsələn, baş rejissor deyirdi ki, aktyorun ayaqqabısı qızıldan olmalıdır. Direktor isə deyirdi ki, mənim sizə veriləcək pulum yoxdur...

İ.Soltan bildirib ki, baş rejissorun səlahiyyətlərini yalnız direktorla məhdudlaşdırmırdılar: "Bundan başqa, teatrlarda ikinci tərəfdə, bədii şura deyilən qurum da var idi. Bədii şuranın üzvləri yalnız teatrın qabaqcıl aktyorlarından, rejissorlarından ibarət olmurdu. Hətta teatrı anlamayan adamlardan da təyin olunurdu. Deyək ki, öz sahəsinin qabaqcıl işçilərindən. Misal üçün, Ömər Ağayev uzun müddət teatrlardan birinin bədii şurasının üzvü olub. Teatrı anlamayan, teatrdan xəbəri olmayan qabaqcıl əmək adamları bədii şurada təmsil olunan "ziyalı"lar da teatrın işinə mane olurdular. Baş rejissorun hər hansı mütərəqqi ideyası direktorun göstərişi ilə bədii şura tərəfindən bloklanırdı. Beləliklə, teatrın başı qarışırdı yersiz mübahisəyə, dartışmaya...

Sizə "Titanik" filmindən bir səhnəni xatırladım. Gəminin suya qərq olacağını bilən hər kəs bir yolla xilas olmağa çalışır. Kimi çemodanını götürüb qaçır, kimisi pulunu. Yalnız gəmidə olan kvartet öz işlərini aramsız olaraq sona kimi davam etdirir, ölümlərini musiqi ilə qarşılayırlar. Onlar ölümü görmürlər, musiqi ifa edirlər. Amma onlar həm də ölümü gözləyirlər. Əsl yaradıcı adam bu cür olmalıdır. Əsl yaradıcı insan özünü fəda etməyi bacarmalıdır...

Çox sevindiricidir ki, son vaxtlar ölkəmizdə teatrı, yaradıcılığı anlayan adamlar iş başına gətirilir. Bu da öz nəticəsini verir..."

Direktor deyir ki, region teatrının öz çətinliyi var: ixtisaslı, peşəkar kadrlar region teatrlarına gəlmək istəmirlər. Bir diqqət edin. Bu gün teatrımızın baş rejissoru yoxdur, baş rəssamı yoxdur. Direktorun iki müavini olmalıdır, yoxdur. Teatrın bədii rəhbəri yoxdur. Bunları qoyaq bir kənara. Teatrın 35 aktyorundan cəmisi 4, ya 5 nəfərinin aktyorluq təhsili var. Bu işin bir tərəfidir. Bu bir faktdır ki, uzun müddət kim iş axtarıbsa, əlacsızlıqdan "adını" yazdırıb bura. İndi də başımıza bir bəla olublar...

Əslində, teatr ömrü boyu mübarizə aparır. Teatrı dövlət ailəsinin ərköyün övladına da bənzətmək olar. Ağıllı işləri ilə yanaşı, cığallığı da, çılğınlığı da olur. Buna da dözməliyik.

Mingəçevir Dövlət Dram Teatrının yaşı heç də az deyil. 1968-ci ildə yaradılan bu sənət ocağı 1969-cu il martın 28-də Cəfər Cabbarlının "Almaz" əsərinin tamaşaya qoyulması ilə fəaliyyətə başlayıb. Yarandığı gündən repertuarında milli, klassik və müasir dramaturgiya nümunələrini əsas götürən Mingəçevir Dövlət Dram Teatrı Türkiyə, rus və dünya dramaturgiyasına da müraciət edib. Bu illər ərzində yaradıcı kollektiv dünya və Azərbaycan dramaturgiyasının 300-ə yaxın əsərinə səhnə həyatı verib. Teatr respublikamızın əksər şəhər və rayonlarına, eləcə də Türkiyə, Gürcüstan və Rusiyaya qastrol səfərləri edib, respublika festivallarının iştirakçısı və qalibi olub.

Söhbətimizi qocaman səhnə ustası, respublikanın Xalq artisti Ella Yaqubova ilə davam etdiririk. Ella xanım söhbətə ötən günlərini yada salmaqla başlayır:

- Atam hərbçi olub. Müharibədə ağır yaralanıb. Ella adında bir polyak həkim atamı ölümdən xilas edib. O, müharibədən dönəndən sonra, 1946-cı ildə Gəncədə dünyaya gəlmişəm. Atam öz xilaskarının adını yaşatmaq üçün adımı Ella qoyub. Atam xidməti yerini dəyişdiyi üçün Bakıya köçməli olduq. Mən orta təhsilimi 44 nömrəli məktəbdə davam etdirdim. Qardaşım Yaqubla rəqsə gedirdik. Hətta televiziyada çıxışlarımız da olub. Atamın arzusu məni şərqşünas görmək idi. Mən isə aktrisa olmaq istəyirdim. Orta məktəbi bitirəndə ali məktəbə qəbul olmaq üçün sənəd verməyə gedəndə atam məni tək buraxmadı. Mənimlə universitetə getdi. Onun təkidi ilə sənədlərimi Şərqşünaslıq fakültəsinə verdik, amma mən qərarımda qəti idim. Bir qədər sonra atamdan xəbərsiz sənədlərimi alıb Krupskaya adına Mədəni Maarif Texnikumunun Aktyorluq fakültəsinə verdim. Valideynlərim elə bilirdilər ki, universitetin Şərqşünaslıq fakültəsində oxuyuram. 1941-1945-ci illər müharibəsinin ildönümü münasibətilə "Gənc qvardiya" tamaşasını hazırlamışdıq. Tamaşa televizorda göstərilirdi. Atam məni görüb təəccüblənmişdi. Hətta çox əsəbiləşmişdi də... Amma mən öz geridönməz seçimimi etmişdim. Təhsilimi başa vurub Gəncəyə qayıtdım. Gəncə teatrında 3 il işlədim.

1968-ci ildə bir tədbirdə teatrın aktyoru Qurbanla birlikdə aparıcılıq edirdim. Tədbirin sonunda Mingəçevir Xalq Deputatları Sovetinin sədri Zülyha Həsənova yaxınlaşıb məni bağrına basdı: "Qızım, sənin çıxışın çox xoşuma gəldi. Bizim sənin kimi istedadlı gənclərə ehtiyacımız var. Səni özümlə Mingəçevirə aparacağam", - söylədi. Dedim ki, axı Mingəçevirdə teatr yoxdur. Cavab verdi ki, Mingəçevirdə dram teatrı açılır. Beləliklə, təklifi qəbul edib Mingəçevirə gəldim. Teatrın ilk tamaşasında Almaz rolunu mənə verdilər... O gündən Mingəçevir Dram Teatrının bütün tamaşalarında rol almışam.

Qocaman səhnə ustası deyir ki, bu gün də səhnədəyəm: "Məni yaşadan da elə səhnədir. Səhnə adamına nə lazımdır: tamaşaçı alqışı, diqqət. Biz sənət adamları əməyimizə görə nə qədər pul alacağımızdan çox oynadığımız rol nə qədər tamaşaçının ürəyinə yatacağını düşünürük. Açığını deyim ki, dövlətimizin qayğısını da istəyirik. Sağ olsunlar, məni dəyərləndiriblər. Region teatrının aktrisasıyam, Xalq artisti fəxri adım var..."

Mingəçevir Dram Teatrında ötən illərdə "Almaz" (C.Cabbarlı), "Hacı Qara" (M.F.Axundzadə), "Eşq və İntiqam", "Laçın yuvası" (S.S.Axundov), "Həmyerlilər" (A.Məmmədov), "Fərhad və Şirin", "Vaqif" (S.Vurğun), "Yağışdan çıxdıq yağmura düşdük" (N.B.Vəzirov), "Kəndçi qızı" (M.İbrahimov), "Cavanşir", "Şeyx Şamil" (M.Hüseyn), "Qətl günü" (Y.Səmədoğlu), eləcə də "Ezop" (Q.Fiqeyredo), "Toros canavarı" (Ə.Nesin), "Müfəttiş", "Evlənmə" (N.Qoqol), "Ayrılmaq anı" (M.Bayciyev) kimi əsərlər müvəffəqiyyətlə tamaşaya qoyulub, seyrçi rəğbətini qazanıb, mətbuatda geniş işıqlandırılıb. Hüseyn Cavidin "Ana" əsərinin tamaşası isə 2004-cü ildə Azərbaycan Teatr Xadimləri İttifaqının qərarı ilə klassik dramaturgiyanın uğurlu səhnə təcəssümünə görə "Qızıl Dərviş" mükafatına layiq görülüb.

2018-ci il oktyabrın 17-də Mingəçevir Dövlət Dram Teatrının 50 illik yubileyi təntənəli şəkildə qeyd olunub. Mingəçevir Dövlət Dram Teatrında olarkən bir məqama da şahidlik etdik. Mehribanlıq, səmimiyyət... Sanki bu kiçik kollektivi birləşdirən, bütün çətinliklərə sinə gərməyə də güc verən bu idi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş konsert proqramı keçirilib

**Lənkəran Dövlət Dram Teatrında Lənkəran şəhər Cəfər Cabbarlı adına 1 saylı Uşaq Müsiqi Məktəbinin müəllim və şagird kollektivinin təşkilatçılığı ilə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş bədii-poetik konsert proqramı keçirilib.**



Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, Milli Məclisin deputatı Fariz İsmayılzadə və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bədii-poetik konsert proqramında Məhəmməd Füzulinin qəzəlləri səsləndirilib, muğamlar ifa olunub və ədəbi kompozisiyalar nümayiş etdirilib.

*"Azərbaycan"*

## "Solo gənclik" layihəsi çərçivəsində növbəti konsert proqramı təqdim olunub



**"İRƏLİ" Mədəniyyət Mərkəzi və Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin birgə təşkilatçılığı ilə "Solo gənclik" layihəsi çərçivəsində Qara Qarayevin ev-muzeyində növbəti konsert keçirilib.**

Mərkəzdən bildirilib ki, konsertdə gənc bəstəkar, pianoçu Aydan Əliyeva musiqi nömrələri ilə çıxış edib. O, müəllifi olduğu müxtəlif mahnıları, həmçinin klassik bəstəkarların əsərlərini ifa edib.

Aydan Əliyeva 2024-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. Simfoniya, prelüd, fortepiano və orkestr üçün əsərlər və mahnıların müəllifidir.

Layihənin keçirilməsində başlıca məqsəd gənclərin mədəni iştirakçılığının artırılması, musiqi mədəniyyətinin inkişafı və istedadlı gənclərin fəaliyyətinin stimullaşdırılmasına nail olmaqdır.

## Türk şeirinin əbədiyaşar şairi

**XX əsr dünya ədəbiyyatının ən böyük şairlərindən olan Nazim Hikmət təkcə türk xalqının deyil, bütün Şərq xalqlarının poeziyasına misilsiz təsir göstərib, şeirdə yeni yollar açmış novator sənətkar, əsrin klassikidir.**



O, özünün romantik ruhlu, coşqun pafoslu, dərin məzmunlu əsərləri ilə müasir türk ədəbiyyatının inkişafına böyük təkan verib. Nazim Hikmət həm mübariz ictimai xadim, həm də istedadlı şair və dramaturq idi. Lakin poeziya onun yaradıcılığının ana xəttini, istedadının ən qüvvətli istiqamətini təşkil edirdi. Türk inqilabi poeziyasının banisi, şair, dramaturq, ssenarist, Beynəlxalq Sülh Mükafatı laureatı Nazim Hikmətin doğum günüdür.

Görkəmli şair 1902-ci il 15 yanvarda Saloniki şəhərində dünyaya göz açıb. O, 1918-ci ildə İstanbulda Hərbi Dənizçilik məktəbinə daxil olub. Həmvətənlərinin acınacaqlı həyatını kiçik yaşlarından hiss edərək Türkiyənin xarici müdaxiləçilər tərəfindən işğalı əleyhinə şeirlər yazdığı, inqilabi hərəkata qoşulduğu üçün 1919-cu ildə məktəbdən xaric edilib.

Şairin "Sərvlikdə" adlı ilk şeiri 1918-ci ildə "Yeni məcmuə" jurnalında dərc olunub. 1921-ci ildə Moskvaya gələrək Şərq Zəhmətkeşlərinin Kommunist Universitetində oxuyub. 1924-cü ildə Ankaraya qayıdıb və həbs edilib. Bir müddət sonra azadlığa çıxaraq qəzet və jurnalda çalışıb. 1925-ci ildə qiyabi olaraq 15 il həbsə məhkum edilən Nazim Hikmət 1927-ci ildə yenidən gizli yolla Moskvaya gəlib. Onun 1926-cı ildə yazdığı ilk poeması "Neft dünyasına səyahət" - Bakı neftçilərinə həsr olunub.

1928-ci ildə şairin ikinci Vətəni saydığı Azərbaycanda ilk kitabı - "Günəşi içənlərin türküsü" nəşr olunub. Nazimə həsr olunmuş ilk məqaləni də Bakıda dövrün görkəmli tənqidçisi Əli Nazim yazıb.

Nazim Hikmət 1938-ci ildə saxta bir ittihamla yenidən həbs olunub və 28 illik məhbəs cəzasına məhkum edilib. Həbsxanada məşhur "İnsan mənzərələri" epopeyasını, "Həbsxanadan məktublar" silsiləsini, "Məhəbbət əfsanəsi", "Yusiflə Züleyxa" pyeslərini və başqa dəyərli əsərlərini yazıb. 1950-ci ildə əfv edilərək azadlığa buraxılan Nazim Moskvaya köçüb. Bu dövrlərdə "Türkiyədə", "Qərib adam", "İvan İvanoviç vardımı, yoxdumu" bir çox şeir və poemalarını, dramaturgiyaya dair məqalələrini qələmə alıb.

Nazim Hikmət həm də istedadlı nasir idi. "Romantika" romanı onun çox qüvvətli nəsr əseridir. Ədibin romanı əsasında "Yaşamaq gözəldir, qardaşım" filmi çəkilib.

Şairin yaradıcılığında dram əsərləri də mühüm yer tutur. Onun pyesləri dəfələrlə Azərbaycan teatr səhnəsində tamaşaya qoyulub. İkinci dəfə Bakıya 30 ildən sonra gəlib. Bəstəkar Arif Məlikovun Nazim Hikmətin librettosu əsasında yaratdığı "Məhəbbət əfsanəsi" baleti dünyanın bir çox ölkəsində tamaşaya qoyulub. Heykəltaraş Münəvvər Rzayeva şairin büstünü, Toğrul Nərimanbəyov və başqa rəssamlar portretini yaradıblar.

N.Hikmət 1963-cü ildə Moskvada vəfat edib.

## Milli Kitabxanada Əməkdar incəsənət xadimi Aydın Kazımzadəyə həsr olunmuş sərgi açılıb



**Milli Kitabxanada kino salnaməmizin yorulmaz tədqiqatçısı kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin 85 illiyi münasibətilə "Əməkdar incəsənət xadimi Aydın Kazımzadə" adlı sərgi açılıb.**

Kitabxanadan bildirilib ki, sərgidə kinoşünasın müəllifi olduğu milli kino tariximizi tədqiq edən fundamental əsərləri, "Ön söz" və rəy verdiyi əsərlər yer alıb.

Sərgi bir həftə davam edəcək.

Qeyd edək ki, kinoşünasın ərsəyə gətirdiyi "Azərbaycan kino salnaməsi: iki cilddə", "Azərbaycan kinosu: filmlərin izahlı kataloqu 1898-2002: 2 cilddə", "Azərbaycan kinosu. Ensiklopedik lüğət: iki cilddə", "Heydər Əliyev və kinematoqraf", "Azərbaycan kinematoqrafçıları", "Azərbaycan kinosu və müharibə" və digər əsərlər kino tariximizin əsl salnaməsidir. Aydın Kazımzadə həm də bir neçə sənədli filmin müəllifidir.

Milli kino arxivinin yaradıcısının Azərbaycan kino sənətinin inkişafındakı səmərəli xidmətləri qiymətləndirilib. O, bir çox mükafata və təltiflərə, o cümlədən Əməkdar mədəniyyət işçisi (2000), Əməkdar incəsənət xadimi (2005) fəxri adlarına layiq görülüb, "Humay", "Qızıl qələm", "Qızıl çıraq" mükafatları laureatıdır.

İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

## Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə
## ELAN

Yaşıl Kart sisteminə üzv ölkələrə səfər etmək istəyən vətəndaşların nəzərinə çatdırırıq ki, bu növ üzrə İcbari Sığorta Bürosu Hüquqi Şəxslərin İttifaqının (Büro) iştirakçısı olan sığorta şirkətləri bunlardır: "AtaSığorta" ASC, "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

Məlumat üçün bildiririk ki, sistem 43 Yaşıl Kart Bürosunun təmsil etdiyi 47 üzv ölkədən ibarətdir. Büro Yaşıl Kart sistemi üzrə əlaqələndirici, ixtisaslaşmış təşkilat kimi fəaliyyət göstərməklə Beynəlxalq Yaşıl Kart Sistemində Azərbaycanı təmsil edir.

**Tel: (+99412) 595 00 20, e-mail:aaliyeva@isb.az Web: www.isb.az**
**Ünvan: Həsən bəy Zərdabi küçəsi, 8, Shokolad Tower 1-ci mərtəbə, Bakı, AZ1141**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun struktur idarələrinə tələb olunan maye qazın (propan) və balonlara illik texniki xidmətlərin satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 yanvar 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*
### *2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Qriplə necə mübarizə aparaq?

**Hər il qış aylarının gəlişi, soyuq-isti balansının pozulması ilə kəskin respirator virus infeksiyalarının müxtəlif ştamları yayılır. Havadamcı yolu ilə ötürülən bu xəstəliklər, adətən, öskürək, burun axması, hərarətin yüksəlməsi, nəfəs darlığı, boğaz ağrısı və səsin boğulması kimi simptomlarla təzahür edir.**



Xüsusən, dekabr-mart aylarında bu şikayətlərlə həkimə müraciət edənlərin sayı artsa da, builki yoluxucu xəstəliklər öncəkilərdən fərqlənir. Belə ki, son zamanlar kəskin respirator virus infeksiyalarına, xüsusən də qripə yoluxan hər kəs sağalmaqda çətinlik çəkdiyini deyir, "həftələr keçsə də, öskürəyim getməyib, hələ də yorğunam" kimi şikayətlər edirlər.

Yoluxucu xəstəliklər üzrə mütəxəssislər bunun bir neçə səbəbinin olduğunu bildirirlər. Bunlardan ən diqqətçəkəni eyni anda iki virusa yoluxma ehtimalıdır. İki virusdan biri, adətən, hələ də koronavirusdur. Digər tərəfdən, qripin ən çox görülən ağırlaşmalarından biri olan sinüzit xəstəliyin müddətini 10-15 gün uzadır. Çünki burun tıxanıqlığı və sinusların dolması xəstəliyin daha ağır keçməsinə səbəb olur.

COVID-19 pandemiyası dövründə ehtiyat tədbirləri səbəbindən immunitet sistemi bu virusları "unutduğu" üçün də xəstəliklər bir az daha uzanır. Orqanizm özünə zərər verən amilləri təmizləmək üçün immunitet sistemindən istifadə edir. Qeyri-sağlam vərdişlər və israrla təkrar etdiyimiz səhvlər immun sisteminin zəifləməsinə, xəstəliyin daha uzun müddət davam etməsinə səbəb olur.

Son günlərdə qripəbənzər tənəffüs yolları xəstəliyi olan metapnevmovirusun (HMPV) da adını tez-tez eşidirik. İlk dəfə 2001-ci ildə rast gəlinən HMPV infeksiyası üzrə qeyri-stabil epidemioloji vəziyyət hazırda Çin, Hindistan, Qazaxıstan, Ukrayna, Qırğızıstan və Rusiyada müşahidə olunur. Virusun yayılmasının əsas səbəbi kimi beynəlxalq səyahətlər göstərilir.

Çində epidemiyaya səbəb olan metapnevmovirusa ən çox yoluxma uşaqlar və yaşlılar arasında baş verir. Xüsusilə 14 yaşdan kiçik uşaqlar və 60 yaşdan yuxarı şəxslər xəstəliyi daha ağır keçirirlər. HMPV-dən ölüm faktları qeydə alınsa da, mütəxəssislər bu ölümlərə şəxsi faktorların, yanaşı xəstəliklərin səbəb olduğunu, pandemiya riskinin olmadığını deyirlər. Ümumilikdə isə sürətli yoluxuculuğa malik HMPV infeksiyası təhlükəli hesab edilmir. Xəstəliyin hansı mənşəli olduğunu isə yalnız laborator diaqnostika ilə təsdiq etmək olar. Diaqnozu dəqiqləşdirmək üçün burun-udlaqdan götürülmüş yaxma molekulyar üsulla (PZR) yoxlanılır.

Özbaşına qəbul edilən antibiotiklər də sağalma prosesinin ləngiməsinə səbəb olur, üstəlik, immuniteti zəiflədir. Həkimlər qeyd edirlər ki, viruslara heç bir antibiotik təsir etmir. Antibiotiklər yalnız bakteriyalar üçündür. Viruslar üçün antiviral dərmanlar mövcuddur ki, onlar da həkim tərəfindən təyin edilir. Xəstələr bunun yerinə bol maye qəbul etməli, simptomatik müalicə olunmalıdırlar. Məsələn, burun tıxanıqlığı varsa, burun damcılarından, boğaz ağrısı varsa, spreylərdən, hərarət 38-i keçərsə, qızdırmasalıcı dərmanlardan istifadə etmək olar. Yüksək hərarət 5-7 gündən çox davam etdikdə isə mütləq həkimə müraciət edilməlidir.

Mütəxəssislər bildirirlər ki, xüsusilə yanvar və fevral aylarında diqqətli olmaq lazımdır. Çünki yaxın həftələrdə kəskin respirator virus infeksiyalarına yoluxma hallarının artacağı gözlənilir. Ancaq sadə ehtiyat tədbirləri ilə xəstəliklərin yayılmasının qarşısını almaq mümkündür.

Viruslara yoluxmamaq üçün ilk olaraq immunitet sistemi gücləndirilməlidir. Bunun əsas yolu balanslaşdırılmış qidalanmadan keçir. C və A vitaminləri ilə zəngin portağal, naringi, limon kimi subtropik meyvələrin istehlakı mütləqdir. Ancaq portağalın suyu yerinə özünü bütöv yemək həm lif, həm də şəkər qəbulu baxımından daha yaxşı seçimdir. Tərkibindəki vitaminlər sayəsində ispanaq da hüceyrələri qoruyur və immun sistemimizin zəifləməsinin qarşısını alır, xüsusilə C vitamini A vitamininin istifadəsini artırır. Güclü immunitet sistemi üçün həftədə iki dəfə ispanaq yemək lazımdır. Ancaq A vitamininin təsirli olması üçün ispanağa yağ əlavə edilərək çiy şəkildə yeyilməlidir.

Balıq həm protein, həm də çox sink mənbəyidir. Xəstəliyə səbəb olan birləşmələrin bədəndən çıxarılmasına kömək edən omega-3 ən çox qızıl balıq, skumbriya və tuna balıqlarında olur. Həftədə 2-3 dəfə balıq yeməyə üstünlük vermək lazımdır. Cəfəri, yumurta, qatıq, badam, qoz kimi qidalar da gündəlik rasiona əlavə edilməlidir. Qeyd etmək lazımdır ki, hər bir qida ancaq lazımi miqdarda və balanslaşdırılmış şəkildə istehlak edildikdə faydalı olur.

İmmunitet sistemini gücləndirməyin digər yolları isə yuxu rejiminə, bol maye qəbuluna diqqət etmək, oturaq həyat tərzindən, stresdən, spirtli içki və tütün məmulatlarından uzaq durmaqdır.

Kəskin respirator virus infeksiyalarından qorunmaq üçün gigiyena qaydalarına əməl etmək, əlləri tez-tez sabunla yumaq və dezinfeksiyaedici məhlullardan istifadə etmək lazımdır. Səthlərdə toplanmış virusların ötürülməsinin qarşısını almaq üçün əllər heç vaxt ağız, burun və gözlərlə təmasda olmamalıdır. Asqırarkən və ya öskürəndə ağzı örtmək, daha sonra isə əlləri alkoqollu salfetlərlə silmək lazımdır.

İnsanların sıx toplaşdığı qapalı və izdihamlı mühitlərdə yoluxma riski daha yüksəkdir. Xüsusilə qış aylarında bu risk artır. İnsanların çox olduğu və qapalı yerlərdə tibbi maskadan istifadə virusların yayılmasının qarşısını alır. Açıq havada maska taxmağa isə ehtiyac yoxdur. Otaqlar tez-tez havalandırılmalıdır. Xəstəliyin yüksək yoluxuculuğunu nəzərə alsaq, onun əlamətlərini hiss edən hər bir şəxs özünü təcrid edərək istirahət etməlidir. Xəstə insanların ən azı 3 gün evdə dincəlmələri və sosiallaşmamaları həm özləri, həm də ətrafdakılar üçün vacibdir.

Hər kəs sağlamlığına diqqət və məsuliyyətlə yanaşmalı, fərdi gigiyena və nizamlı davranış qaydalarına riayət etməli, özünü və ətrafındakıları infeksiyalara yoluxmaqdan qorumalıdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

# Bəzi yerlərdə fasilələrlə yağış yağacaq

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən arabir tutulacağı, gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir, lakin axşama doğru tədricən kəsiləcək. Cənub-şərq küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 3-6° isti, gündüz 6-9° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 768 millimetr civə sütunu təşkil edəcək. Nisbi rütubət 70-80 faiz olacaq.



Azərbaycanın əksər rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında, gündüzdən isə əksər yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq, Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 6-11° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacağı gözlənilir. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 1° şaxtadan 4°-dək isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq, Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti olacaq.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 0-4° isti, dağlıq ərazilərdə 5°-dək şaxta, gündüz 3-8° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° isti, gündüz 7-11° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, bəzi dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq, Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-4° isti, gündüz 5-10° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 6-11° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Axşam bəzi yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-5° isti, gündüz 6-10° isti, dağlarda gecə 0-2° isti, gündüz 4-7° isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Fövqəladə və səlahiyyətli səfir Həsən Zeynalova bacısı

**SARA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Elkiyar Ziyadova əzizi

**SƏYYAF HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rafiq Aslanov

**ŞƏMSƏDDİN XANBABAYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov

**ŞƏMSƏDDİN XANBABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Şəki Rayon Məhkəməsinin sədri Ceyhun Əhmədov, hakimi Elşən Vəliyev və məhkəmənin kollektivi Şəki Rayon Məhkəməsinin hakimi Kamran Musayevə anası

**TAMİLLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Rayon Məhkəməsinin hakimi Kamran Musayevə anası

**TAMİLLA ORUCOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3245
Sifariş 84

Qiyməti 60 qəpik